**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**№____**

# SOSİAL, İQTİSADİ İNKİŞAF

6

**YANVAR-İYUN**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2020-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 13 |
| | Sənaye | 16 |
| | Tikinti | 39 |
| | Kənd təsərrüfatı | 46 |
| | Nəqliyyat | 52 |
| | İnformasiya və rabitə | 55 |
| | İstehlak bazarı | 56 |
| | Məhsul bazarı | 57 |
| | İctimai iaşə xidmətləri | 62 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 63 |
| | Qiymət indeksləri | 66 |
| | Kredit qoyuluşları | 80 |
| | Məşğulluq və işsizlik | 82 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 85 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 89 |
| **V** | **İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏR** | |
| | Təsərrüfat subyektlərinin xarakteristikası | 94 |
| **VI** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 115 |
| | Əməkhaqqı | 116 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 117 |
| | Demoqrafik vəziyyət | 119 |
| | **Əlavələr** | **121** |
| | **Metodoloji izahatlar** | **139** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 6**
**15 iyul 2020-ci il**

## 2020-ci İLİN YANVAR-İYUN AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2020-ci ilin yanvar-iyun aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 33,8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 2,9 faiz, qeyri neft-qaz sektorunda isə 2,5 faiz azalmışdır.

Əlavə dəyərin 35,7 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,6 faizi tikinti, 2,0 faizi informasiya və rabitə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində, 19,1 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 3393,7 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2020-ci ilin yanvar-iyun aylarında 18,4 milyard manatlıq və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz az sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 11,2 faiz artmışdır.

Sənaye məhsulunun 61,6 faizi mədənçıxarma sektorunda, 32,1 faizi emal sektorunda, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi

isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,9 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 14,9 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 4,6 dəfə, metallurgiya sənayesi məhsullarının istehsalı 2,2 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 96,1 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 66,6 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 57,2 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 37,9 faiz, kağız və karton istehsalı 21,3 faiz, kimya sənayesi məhsullarının istehsalı 20,5 faiz, tütün məmulatlarının istehsalı 16,3 faiz, maşın və avadanlıqların istehsalı 16,2 faiz, geyim istehsalı 6,8 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 4,1 faiz, elektrik avadanlıqlarının istehsalı 3,8 faiz, neft məhsullarının istehsalı 0,8 faiz artmış, toxuculuq sənayesi məhsullarının istehsalı 0,5 faiz, qida məhsullarının istehsalı 1,1 faiz, içkilərin istehsalı 3,8 faiz, mebel istehsalı 5,2 faiz, poliqrafiya məhsullarının istehsalı 6,2 faiz, tikinti materiallarının istehsalı 10,4 faiz, hazır metal məmulatlarının istehsalı 13,1 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 36,9 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 44,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 12,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,5 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2020-ci il vəziyyətinə 561,6 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** yaz tarla işləri başa çatmışdır. 2020-ci il iyul ayının 1-nə kimi 393,8 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 61,9 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 34,6 min hektarı dən üçün qarğıdalı), 57,0 min hektar sahədə kartof, 66,5 min hektar sahədə tərəvəz, 20,0 min hektar

sahədə bostan bitkiləri, 100,3 min hektar sahədə pambıq, 11,4 min hektar sahədə dən üçün günəbaxan, 5,0 min hektar sahədə şəkər çuğunduru, 3,1 min hektar sahədə tütün, 65,2 min hektar sahədə çoxillik otlar, 1,1 min hektar sahədə birillik otlar və 2,3 min hektar sahədə sair bitkilər əkilmişdir.

2020-ci il iyul ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 2372,6 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 6,7 faiz az dənlilər və dənli paxlalı bitkilər, 368,3 min ton (9,7 faiz çox) kartof, 716,9 min ton (6,2 faiz çox) tərəvəz, 76,6 min ton (39,8 faiz çox) bostan məhsulları, 131,9 min ton (5,3 faiz çox) meyvə və giləmeyvə, 1326,0 ton (6,4 faiz çox) tütün, 422,2 ton (25,0 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında diri çəkidə ət istehsalı 3,1 faiz artaraq 260,4 min ton, süd istehsalı 1,9 faiz artaraq 1056,7 min ton, yumurta istehsalı 7,0 faiz artaraq 991,5 milyon ədəd və yun istehsalı 0,1 faiz artaraq 14,6 min ton olmuşdur. Bundan başqa, ölkədə 445,9 ton barama istehsal olunmuşdur.

2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 2,2 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 1,1 faiz, heyvandarlıq məhsullarının istehsalı isə 3,2 faiz artmışdır.

2020-ci ilin yanvar-iyun aylarında **əsas kapitala** 5956,2 milyon manat məbləğində, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 17,5 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,5 faiz azalmışdır. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3501,8 milyon manatını və ya 58,8 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3577,3 milyon manatı və ya 60,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Koronavirus pandemiyasına qarşı tətbiq edilən xüsusi karantin rejimi ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə iqtisadiyyatın bir sıra sahələrində fəaliyyətin,

Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxışın, o cümlədən yerli hava uçuşlarının məhdudlaşdırılması **yük və sərnişin daşımalarının** azalmasına gətirib çıxarmışdır. Belə ki, sərnişin daşınması cari ilin iyun ayında may ayına nisbətən 2,6 faiz, ötən ilin iyun ayı ilə müqayisədə isə 49,5 faiz azalmış, nəticədə ümumilikdə cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ölkə üzrə sərnişin daşınması 28,7 faiz azalmışdır. Yük daşınmasının isə cari ilin iyun ayında may ayı ilə müqayisədə 3,6 faiz artmasına baxmayaraq, ötən ilin iyun ayına nisbətən baş vermiş 29,8 faizlik geriləmə ümumilikdə yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ölkə üzrə yük daşınmasının 14,1 faiz azalmasına səbəb olmuşdur.

Yüklərin 58,4 faizi avtomobil, 30,7 faizi boru kəməri, 7,5 faizi dəmir yolu, 3,2 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

Sərnişinlərin 90,5 faizi avtomobil, 9,3 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 1042,8 milyon manatlıq xidmətlərin 72,0 faizi əhali sektoruna aid olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-iyun aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 4,4 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 80,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2020-ci ilin yanvar-iyun aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 18245,7 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 3339,9 milyon manatlıq ödənişli xidmət göstərilmişdir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 1,9 faiz, əhaliyə göstərilmiş **ödənişli xidmətlərdən** əldə olunan gəlir 19,2 faiz azalmış, ticarət şəbəkəsində 9729,7 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8516,0 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır. Əmtəə dövriyyəsinin azalması qeyri-ərzaq malları üzrə pərakəndə ticarət dövriyyəsinin 6,9 faiz azalması hesabına baş vermiş, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə dövriyyə isə 3,1 faiz artmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-ci ilin yanvar-may aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 9852,5 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 5687,4 milyon dollarını və ya 57,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 4165,1 milyon dollarını (42,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1522,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,1 faiz, real ifadədə 19,0 faiz, o cümlədən idxal 42,7 faiz, ixrac isə 2,2 faiz azalmışdır.

2020-ci ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı 2019-cu ilin yanvar-may aylarına nisbətən faktiki qiymətlərlə 8,9 faiz, real ifadədə isə 14,5 faiz azalaraq 721,5 milyon dollar təşkil etmişdir.

2020-ci ilin yanvar-iyun aylarında **istehlak qiymətləri indeksi** 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 103,0 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,5 faiz, qeyri-ərzaq malları üzrə 101,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 101,0 faiz təşkil etmişdir.

2020-ci ilin yanvar-may aylarında muzdla işləyənlərin **orta aylıq nominal əməkhaqqı** 2019-cu ilin müvafiq dövrünə nisbətən 24,9 faiz artaraq 728,9 manat təşkil etmişdir.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-iyun aylarında **əhalinin gəlirləri** nominal ifadədə 0,6 faiz artaraq 27,4 milyard manat təşkil etmişdir.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2020-ci ilin yanvar-iyun aylarında **dövlət büdcəsinə** 12022,7 milyon manat vəsait daxil olmuş, büdcədən 11730,8 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 291,9 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2020-ci il iyun ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 14765,7 milyon manat təşkil etmiş, onun 12187,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 7,3 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2020-ci il iyun ayının 1-nə 7661,3 milyon manat təşkil etmişdir.

2020-ci ilin yanvar-iyun aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 1,87 manata, 100 Rusiya rubluna – 2,5 manata bərabər olmuşdur.

2020-ci ilin yanvar-may aylarında **əhalinin sayı** 22745 nəfər və ya 0,2 faiz artaraq 2020-ci il iyun ayının 1-i vəziyyətinə 10089853 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2020-ci ilin yanvar-iyun ayları, faktiki | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **33 803,9** | **97,3** | **102,4** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 23 043,5 | 97,5 | 103,2 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **3 393,7** | **96,6** | **101,5** |
| **Sənaye məhsulu, milyon manat** | **18 401,9** | **98,5** | **101,8** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 5 722,5 | 111,2 | 115,7 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **5 956,2** | **97,3** | **94,6** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 3 177,8 | 84,5 | 105,1 |
| ondan qeyri neft-qaz sənayesinə | 452,0 | 74,3 | 80,2 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **4 082,7** | **102,2** | **113,0** |
| o cümlədən: bitkiçilik | 1 997,1 | 101,1 | 125,6 |
| heyvandarlıq | 2 085,6 | 103,2 | 102,9 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **96,3** | **85,9** | **101,6** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **690,0** | **71,3** | **101,5** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 042,8** | **104,4** | **115,8** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **18 245,7** | **98,1** | **102,8** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **3 339,9** | **80,8** | **101,5** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **12 022,7** | **115,5** | **106,4** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **11 730,8** | **107,1** | **115,0** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **291,9** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **27 377,8** | **100,6** | **106,1** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **2 749,7** | **99,8** | **105,2** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2020-ci il 01 iyun vəziyyətinə, milyon manat** | **7 661,3** | **88,8** | **109,6** |
| **Kredit qoyuluşları, 2020-ci il 01 iyun vəziyyətinə, milyon manat** | **14 765,7** | **111,9** | **110,5** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 084,8 | 72,6 | 87,3 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **728,9*** | **124,9**** | **107,9***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **103,0** | **102,5** |
| **Əhalinin sayı, 2020-ci il 01 iyun vəziyyətinə, min nəfər** | **10 089,9** | **100,8** | **100,8** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **9 852,5*** | **69,9**** | **116,4***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **81,0**** | **106,8***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 5 687,4* | 69,0** | 100,1*** |
| müqayisəli qiymətlərlə | x | 97,8** | 100,4*** |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 721,5* | 91,1** | 116,8*** |
| müqayisəli qiymətlərlə | x | 85,5** | 111,6*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 4 165,1* | 71,3** | 151,4*** |
| müqayisəli qiymətlərlə | x | 57,3** | 120,4*** |

**Qeyd:**

* 2020-ci ilin yanvar-may ayları.

** 2020-ci ilin yanvar-may ayları 2019-cu ilin yanvar-may aylarına nisbətən.

*** 2019-cu ilin yanvar-may ayları 2018-ci ilin yanvar-may aylarına nisbətən.

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

# Ümumi Daxili Məhsul

2020-ci ilin yanvar-iyun aylarında ölkədə istehsal olunmuş ümumi daxili məhsulun həcmi 33803,9 milyon manat təşkil etmiş və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 faiz azalmışdır.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 2,5 faiz, neft-qaz sektorunda isə 2,9 faiz azalmışdır.

ÜDM istehsalının 35,7 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,6 faizi tikinti, 2,0 faizi informasiya və rabitə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 19,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 3393,7 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyun | | 2020-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2020 | 2019 | |
| **Ümumi Daxili Məhsul** | **33803,9** | **38402,6** | **97,3** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2360,3 | 2125,0 | 102,2 |
| Sənaye | 12081,8 | 16875,8 | 98,4 |
| o cümlədən: mədənçıxarma sənayesi | 9531,9 | 14376,5 | 96,6 |
| emal sənayesi | 2086,0 | 2038,1 | 108,2 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 395,2 | 389,4 | 112,1 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 68,7 | 71,8 | 100,5 |
| Tikinti | 1896,7 | 2213,9 | 85,5 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 3806,1 | 3748,6 | 98,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2541,0 | 2357,9 | 106,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 511,2 | 972,3 | 52,1 |
| İnformasiya və rabitə | 690,1 | 660,9 | 104,4 |
| Digər sahələr | 6442,9 | 6124,1 | 99,1 |
| **Məhsula və idxala xalis vergilər** | **3473,8** | **3324,1** | **98,2** |
| **ÜDM-in deflyatoru** | **90,4** | **x** | **x** |

]

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-iyun | | 2020-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2020 | 2019* | |
| **Ümumi Daxili Məhsul** | **33803,9** | **38402,6** | **97,3** |
| o cümlədən: neft-qaz sektoru | 10760,4 | 15603,6 | 97,1 |
| qeyri neft-qaz sektoru | 23043,5 | 22799,0 | 97,5 |

*) 2019-cu ilin yanvar-iyun aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1

**2020-ci ilin yanvar-iyun aylarında istehsal olunmuş ümumi daxili məhsulun strukturu**



# Sənaye

2020-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 1,5 faiz azalaraq 18,4 milyard manat təşkil etmişdir. Sənayenin qeyri neft-qaz sektorunda istehsal əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə 11,2 faiz artmış, neft-qaz sektorunda isə 2,8 faiz azalmışdır. Sənaye məhsulunun 61,6 faizi mədənçıxarma, 32,1 faizi emal, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 77,7 faiz olmuşdur. Ümumi istehsalın 85,8 faizi sənaye məhsullarının istehsalı, 14,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2019-cu il** | | |
| Yanvar | 104,4 | 103,4 |
| Fevral | 92,1 | 104,6 |
| Mart | 103,1 | 104,4 |
| Aprel | 90,7 | 102,2 |
| May | 118,1 | 102,2 |
| İyun | 99,2 | 101,8 |
| İyul | 99,3 | 102,2 |
| Avqust | 95,8 | 102,0 |
| Sentyabr | 92,0 | 101,7 |
| Oktyabr | 97,0 | 101,4 |
| Noyabr | 109,5 | 101,4 |
| Dekabr | 111,3 | 101,8 |
| **2020-ci il** | | |
| Yanvar | 98,3 | 102,1 |
| Fevral | 91,0 | 100,9 |
| Mart | 103,0 | 100,8 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| Aprel | 92,7 | 103,0 |
| May | 110,0 | 100,4 |
| İyun | 92,7 | 98,5 |

2020-ci ilin yanvar-iyun aylarında 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə aralıq istehlak məhsullarının istehsalı 28,5 faiz artmış, istehsal vasitələrinin istehsalı 14,4 faiz, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı 2,7 faiz, enerji məhsullarının istehsalı isə 2,3 faiz, qısamüddətli istifadədə olan malların istehsalı 2,1 faiz azalmışdır.

Cədvəl 5

| | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye – cəmi** | **89,2** | **98,5** |
| Aralıq istehlak məhsullarının istehsalı | 94,3 | 128,5 |
| Uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı | 82,2 | 97,3 |
| Qısamüddətli istifadədə olan malların istehsalı | 88,5 | 97,9 |
| İstehsal vasitələrinin istehsalı | 95,6 | 85,6 |
| Enerji məhsullarının istehsalı | 89,1 | 97,7 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2020-ci il vəziyyətinə 561,6 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 0,3 faizi Naxçıvan Muxtar Respublikasının, 50,3 faizi Bakı, 9,8 faizi Gəncə, 6,6 faizi Sumqayıt, 5,1 faizi Şirvan, 0,1 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa

müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 89,6 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 11,3 milyard manat olmaqla, əvvəlki ilin yanvar-iyun aylarına nisbətən 3,0 faiz azalmışdır.

Sahənin əsas məhsulu olan əmtəəlik xam neft hasilatı 17,8 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 13,8 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı 4,9 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 14,9 faiz artmışdır.

Cədvəl 6

**Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növləri**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 17897,3 | 95,3 | 348,6 |
| ondan əmtəəlik | 17810,2 | 95,1 | 348,6 |
| Təbii qaz, milyon kub metr | 19359,2 | 111,8 | - |
| ondan əmtəəlik | 13777,8 | 114,9 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis filizləri və konsentratları, ton | 1253,1 | 130,3 | 122,7 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 3862,0 | 112,3 | 676,1 |
| o cümlədən : qızıl | 1711,7 | 99,5 | 259,5 |
| gümüş | 2150,3 | 125,1 | 416,6 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 360,9 | 84,8 | 3,6 |
| İnşaat üçün əhəng daşı, min ton | 194,3 | 125,9 | - |

…ardı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 670,5 | 181,3 | 21,7 |
| Duz, min ton | 36,0 | 105,5 | 0,1 |
| Bentonit, min ton | 85,1 | 63,8 | 163,6 |
| ondan əmtəəlik | 80,8 | 63,9 | 163,6 |
| Gips və anhidrit, min ton | 132,3 | 109,7 | 22,8 |

Qrafik 2

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**




## Emal sənayesi

Emal sənayesində yanvar-iyun aylarında 5911,4 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

## Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2019-cu il** | | |
| Yanvar | 111,9 | 120,3 |
| Yanvar-fevral | 115,3 | 122,6 |
| Yanvar-mart | 115,4 | 122,2 |
| Yanvar-aprel | 112,3 | 119,9 |
| Yanvar-may | 113,0 | 120,5 |
| Yanvar-iyun | 113,5 | 120,7 |
| Yanvar-iyul | 114,5 | 120,8 |
| Yanvar-avqust | 114,0 | 120,0 |
| Yanvar-sentyabr | 113,7 | 120,7 |
| Yanvar-oktyabr | 111,5 | 119,3 |
| Yanvar-noyabr | 111,1 | 118,2 |
| Yanvar-dekabr | 111,5 | 118,6 |
| **2020-ci il** | | |
| Yanvar | 120,9 | 120,7 |
| Yanvar-fevral | 119,5 | 124,1 |
| Yanvar-mart | 120,5 | 126,5 |
| Yanvar-aprel | 114,3 | 119,3 |
| Yanvar-may | 110,9 | 115,8 |
| Yanvar-iyun | 108,2 | 112,2 |

Qrafik 3

## Emal sənayesi üzrə istehsal indeksinin dinamikası

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 8

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir, milyon manat | 2019-cu ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **5911,4** | **108,2** |
| o cümlədən: qida məhsullarının istehsalı | 1931,1 | 98,9 |
| içki istehsalı | 213,1 | 96,2 |
| tütün məmulatlarının istehsalı | 154,8 | 116,3 |
| toxuculuq sənayesi | 142,4 | 99,5 |
| geyim istehsalı | 46,9 | 106,8 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 8,4 | 63,1 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 34,9 | 137,9 |
| kağız və karton istehsalı | 52,5 | 121,3 |
| poliqrafiya məhsullarının istehsalı | 50,3 | 93,8 |
| neft məhsullarının istehsalı | 1556,0 | 100,8 |
| kimya sənayesi | 423,7 | 120,5 |
| əczaçılıq məhsullarının istehsalı | 2,3 | 4,6 d. |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 149,7 | 104,1 |
| tikinti materiallarının istehsalı | 327,6 | 89,6 |
| metallurgiya sənayesi | 199,7 | 2,2 d. |
| hazır metal məmulatlarının istehsalı | 121,2 | 86,9 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 14,0 | 166,6 |
| elektrik avadanlıqlarının istehsalı | 79,9 | 103,8 |
| maşın və avadanlıqların istehsalı | 115,9 | 116,2 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 28,0 | 196,1 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 2,3 | 157,2 |
| mebellərin istehsalı | 68,9 | 94,8 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 40,6 | 110,6 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 147,2 | 55,3 |

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tütün məmulatlarının istehsalında 16,3 faiz artım, içki istehsalında 3,8 faiz, qida məhsullarının istehsalında isə 1,1 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından papiros və siqaret istehsalı 41,2 faiz, kolbasa məmulatları istehsalı 33,9 faiz, araq istehsalı 35,7 faiz, pivə istehsalı 14,8 faiz, marqarin istehsalı 13,5 faiz, qaymaq və xama istehsalı 12,4 faiz, kərə yağı istehsalı 2,3 faiz artmış, qənd və şəkər tozu istehsalı isə 26,7 faiz azalmışdır.

Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2019-cu il** | | | |
| Yanvar | 114,3 | 148,9 | 66,5 |
| Yanvar-fevral | 123,2 | 163,4 | 67,9 |
| Yanvar-mart | 126,8 | 178,8 | 107,2 |
| Yanvar-aprel | 121,8 | 157,1 | 121,1 |
| Yanvar-may | 120,5 | 159,8 | 114,9 |
| Yanvar-iyun | 120,0 | 165,2 | 114,2 |
| Yanvar-iyul | 118,3 | 152,2 | 125,1 |
| Yanvar-avqust | 115,7 | 144,9 | 132,2 |
| Yanvar-sentyabr | 115,1 | 140,4 | 178,5 |
| Yanvar-oktyabr | 113,9 | 139,5 | 167,6 |
| Yanvar-noyabr | 110,4 | 140,0 | 155,7 |
| Yanvar-dekabr | 110,8 | 141,4 | 180,7 |
| **2020-ci il** | | | |
| Yanvar | 101,1 | 140,8 | 101,6 |
| Yanvar-fevral | 101,2 | 2,1 d. | 116,3 |
| Yanvar-mart | 105,3 | 2,1 d. | 128,0 |
| Yanvar-aprel | 108,1 | 108,3 | 118,9 |
| Yanvar-may | 101,8 | 102,9 | 126,1 |
| Yanvar-iyun | 98,9 | 96,2 | 116,3 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin istehsalı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 11516,8 | 133,9 | 11,0 |
| Qaymaq və xama, ton | 3688,7 | 112,4 | - |
| Pendir və kəsmik, ton | 26265,4 | 102,1 | 83,8 |
| Kərə yağı, ton | 12183,5 | 102,3 | 78,3 |
| Cem və marmeladlar, ton | 37788,6 | 97,1 | 3885,0 |
| Duru bitki yağları, ton | 27060,1 | 97,9 | 3272,1 |
| Marqarin, ton | 26813,1 | 113,5 | 1444,6 |
| İnsanın qidalanması üçün yararlı olan duz, min ton | 35,0 | 106,4 | 2,0 |
| Qənd və şəkər tozu, min ton | 94,6 | 73,3 | 19,7 |
| Çörək, min ton | 706,7 | 101,6 | - |
| **İçki məhsulları** | | | |
| Şampan şərabı, min dkl | - | - | 3,1 |
| Araq, min dkl | 1206,4 | 135,7 | 222,9 |
| Brendi (konyak), min dkl | 13,1 | 108,3 | 15,3 |

…ardı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Üzüm şərabı, min dkl | 109,2 | 33,7 | 1033,2 |
| Pivə, min dkl | 2507,5 | 114,8 | 234,3 |
| Alkoqolsuz içkilər, min dkl | 12590,2 | 100,1 | 918,8 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 2482,1 | 89,2 | 1351,0 |
| Papiros və siqaretlər, milyon ədəd | 2974,9 | 141,2 | 14,8 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 197,7 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə geyim istehsalında 6,8 faiz artım, toxuculuq sənayesində 0,5 faiz, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında isə 36,9 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2019-cu il** | | | |
| Yanvar | 156,9 | 67,7 | 101,5 |
| Yanvar-fevral | 149,6 | 72,9 | 60,2 |
| Yanvar-mart | 161,4 | 71,1 | 64,0 |
| Yanvar-aprel | 148,1 | 110,2 | 70,5 |
| Yanvar-may | 147,4 | 99,9 | 72,3 |
| Yanvar-iyun | 151,2 | 103,3 | 102,0 |
| Yanvar-iyul | 140,9 | 105,6 | 88,6 |
| Yanvar-avqust | 135,8 | 108,1 | 83,6 |
| Yanvar-sentyabr | 139,2 | 110,6 | 74,8 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| Yanvar-oktyabr | 137,0 | 112,0 | 73,8 |
| Yanvar-noyabr | 136,2 | 111,5 | 98,7 |
| Yanvar-dekabr | 133,2 | 122,6 | 97,1 |
| **2020-ci il** | | | |
| Yanvar | 98,6 | 170,1 | 40,3 |
| Yanvar-fevral | 125,0 | 179,6 | 59,7 |
| Yanvar-mart | 110,5 | 110,0 | 39,3 |
| Yanvar-aprel | 101,2 | 103,6 | 45,9 |
| Yanvar-may | 101,6 | 113,0 | 62,8 |
| Yanvar-iyun | 99,5 | 106,8 | 63,1 |

Cədvəl 12

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 37657,1 | 85,1 | 18375,2 |
| Hazır pambıq parçalar, min kv.m | 14289,1 | 155,1 | 3108,8 |
| Pambıq iplik, ton | 21148,2 | 112,7 | 2210,6 |
| ondan əmtəəlik | 20685,5 | 110,2 | 2210,6 |
| Pambıq yataq ağları, min ədəd | 25,3 | 6,3 | 0,8 |
| Xalça və xalça məmulatları, kv.m | 867,0 | 59,4 | 3230,1 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 90,4 | 56,7 | 1,4 |
| Alt geyim, min ədəd | 201,0 | 61,3 | 4,6 |
| Digər trikotaj məmulatları, min ədəd | 38,9 | 3,1 d. | 1,8 |
| Corab məmulatları, min cüt | 1575,8 | 128,3 | 51,8 |

…ardı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat və peşə komplektləri, min ədəd | 356,8 | 163,5 | 92,2 |
| Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat pencəkləri və bleyzerləri, ədəd | - | - | 4370 |
| Qadın və ya qızlar üçün kostyum və komplektlər, ədəd | 1243 | 84,6 | - |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv,m | 16,2 | 51,1 | 140,0 |
| Aşılanmış xəz dərilər, min kv,m | 0,6 | 2,0 | 31,6 |
| Ayaqqabı, min cüt | 204,1 | 190,9 | 71,8 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 1556,0 milyon manat olmaqla, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə 0,8 faiz artmışdır. Neft məhsullarından neft bitumunun istehsalı 38,7 faiz, sürtkü yağlarının istehsalı 33,3 faiz, dizel yanacağının istehsalı 4,9 faiz, avtomobil benzininin istehsalı 0,7 faiz artmış, neft koksunun istehsalı 8,2 faiz, neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı 8,8 faiz, ağ neftin istehsalı 16,3 faiz, yanacaq mazutunun istehsalı 32,2 faiz azalmışdır.

Cədvəl 13

**Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 611,5 | 100,7 | 81,1 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 138,4 | 91,2 | - |
| Ağ neft, min ton | 251,5 | 83,7 | 40,3 |
| Dizel yanacağı, min ton | 1119,2 | 104,9 | 108,4 |
| Yanacaq mazutu, min ton | 39,2 | 67,8 | 14,9 |
| Sürtkü yağları, min ton | 12,8 | 133,3 | 10,4 |
| Neft bitumu, min ton | 135,9 | 138,7 | 16,5 |
| Neft koksu, min ton | 111,4 | 91,8 | 69,7 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 575,7 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı əczaçılıq məhsullarının istehsalında 4,6 dəfə, kimya sənayesində 20,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 4,1 faiz artmışdır.

Əsas kimya məhsullarından metanol istehsalı 33,2 faiz, propilen istehsalı 26,9 faiz, etilen istehsalı 22,4 faiz artmışdır. Rezin və plastik kütlə məmulatlarından məsaməli polistirol lövhələr və zolaqların istehsalı 2,6 dəfə, bərk polipropilen boruların istehsalı 25,4 faiz artmışdır.

Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2019-cu il** | | | |
| Yanvar | 135,4 | 75,6 | 163,3 |
| Yanvar-fevral | 133,2 | 126,8 | 164,0 |
| Yanvar-mart | 132,6 | 144,0 | 159,3 |
| Yanvar-aprel | 131,2 | 154,2 | 128,7 |
| Yanvar-may | 130,4 | 116,8 | 132,8 |
| Yanvar-iyun | 130,4 | 105,7 | 130,8 |
| Yanvar-iyul | 130,4 | 101,3 | 127,2 |
| Yanvar-avqust | 130,7 | 90,2 | 124,4 |
| Yanvar-sentyabr | 120,6 | 112,6 | 126,1 |
| Yanvar-oktyabr | 126,5 | 120,8 | 122,7 |
| Yanvar-noyabr | 127,3 | 124,7 | 117,1 |
| Yanvar-dekabr | 125,6 | 120,6 | 122,0 |
| **2020-ci il** | | | |
| Yanvar | 140,5 | 160,0 | 103,5 |
| Yanvar-fevral | 119,5 | 104,2 | 103,6 |
| Yanvar-mart | 125,7 | 136,7 | 125,0 |
| Yanvar-aprel | 124,9 | 160,7 | 120,0 |
| Yanvar-may | 124,6 | 3,1 d. | 113,6 |
| Yanvar-iyun | 120,5 | 4,6 d. | 104,1 |

Qrafik 5

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Azot, min kub m | 11193,1 | 98,5 | 146,9 |
| ondan əmtəəlik | 272,9 | 51,4 | 146,9 |
| Yod, ton | 88,5 | 93,9 | 22,7 |
| Oksigen, min kub m | 1117,7 | 63,5 | 43,1 |
| ondan əmtəəlik | 1094,0 | 63,3 | 43,1 |
| Propilen, min ton | 66,6 | 126,9 | 1,1 |
| ondan əmtəəlik | 63,9 | 121,9 | 1,1 |
| Polietilen, min ton | 47,2 | 79,7 | 5,0 |
| Etilen, min ton | 87,5 | 122,4 | - |
| Metanol (metil spirti), min ton | 243,8 | 133,2 | 30,9 |
| Lak-boya məmulatları, ton | 6384,5 | 57,6 | 1249,1 |
| Sair üzvi kompozisiya həllediciləri və durulaşdırıcıları, ton | 15283,2 | 134,3 | 18,6 |

…ardı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 4973,9 | 103,6 | 3926,2 |
| Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 1912,4 | 125,4 | 135,7 |
| Məsaməli polistirol lövhələr və zolaqlar, ton | 1534,4 | 2,6 d. | 29,1 |
| Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 6703,0 | 95,4 | 3970,2 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 455,5 | 123,6 | 124,7 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 12,5 | 84,5 | 12,4 |
| Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat | 403,8 | 166,3 | 271,5 |

**Tikinti materiallarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 327,6 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz azalmışdır. Tikinti gipsinin istehsalı 2,1 dəfə, tikinti kərpicinin istehsalı 15,1 faiz, hörmə üçün hazır beton qarışığının istehsalı 3,6 faiz artmış, sementin istehsalı 2,4 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 26,7 faiz, emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatların istehsalı 41,1 faiz, tikinti əhənginin istehsalı 41,3 faiz, asfaltın istehsalı 41,5 faiz, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı isə 64,5 faiz azalmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Tikinti materiallarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 1570,2 | 97,6 | 94,9 |
| Tikinti gipsi, min ton | 9,2 | 2,1 d. | 2,6 |
| ondan əmtəəlik | 9,0 | 2,1 d. | 2,6 |
| Tikinti əhəngi, min ton | 13,5 | 58,7 | 4,4 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 21,0 | 35,5 | 43,6 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 17,3 | 73,3 | 4,8 |
| Asfalt, min ton | 71,1 | 58,5 | 0,1 |
| Tikinti kərpici, min kub metr | 236,8 | 115,1 | 15,3 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 821,5 | 103,6 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 10165,1 | 58,9 | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində yanvar-iyun aylarında 320,9 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesində 2,2 dəfə artım, hazır metal məmulatlarının istehsalı sahəsində isə 13,1 faiz azalma müşahidə olunmuşdur. Yanvar-iyun aylarında sahə üzrə 16116,4 ton qara metallardan sair konstruksiyalar istehsal edilmişdir.

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2019-cu il** | | |
| Yanvar | 83,9 | 74,6 |
| Yanvar-fevral | 91,1 | 87,6 |
| Yanvar-mart | 86,1 | 77,4 |
| Yanvar-aprel | 83,3 | 104,8 |
| Yanvar-may | 81,6 | 121,1 |
| Yanvar-iyun | 81,8 | 147,1 |
| Yanvar-iyul | 82,4 | 159,2 |
| Yanvar-avqust | 83,9 | 180,1 |
| Yanvar-sentyabr | 85,4 | 178,1 |
| Yanvar-oktyabr | 87,4 | 183,5 |
| Yanvar-noyabr | 88,3 | 182,4 |
| Yanvar-dekabr | 90,5 | 180,0 |
| **2020-ci il** | | |
| Yanvar | 138,8 | 163,9 |
| Yanvar-fevral | 139,6 | 156,5 |
| Yanvar-mart | 2,1 d. | 102,7 |
| Yanvar-aprel | 2,3 d. | 104,4 |
| Yanvar-may | 2,2 d. | 107,4 |
| Yanvar-iyun | 2,2 d. | 86,9 |

Cədvəl 18

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 117,6 | 67,7 | 4,5 |
| Armatur, min ton | 113,5 | 77,1 | 5,4 |
| Polad borular, min ton | 15,9 | 143,2 | - |
| Emal edilməmiş alüminium ərintiləri, ilkin şəkildə, min ton | 17,6 | 88,0 | 6,5 |
| Alüminium çubuqlar, millər və profillər, ton | 1454,8 | 4,3 d. | 254,6 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan yığma tikinti konstruksiyaları, min manat | 11389,4 | 91,8 | 98,2 |
| Qara metallardan sair konstruksiyalar, ton | 16116,4 | 117,1 | 2588,7 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 2778,0 | 154,6 | - |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 93,9 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 66,6 faiz, elektrik avadanlıqlarının istehsalı isə 3,8 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin yanvar-iyun ayları ilə müqayisədə avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatların istehsalı 12,2 dəfə, 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqillərinin istehsalı isə 2,3 dəfə artmışdır.

Cədvəl 19

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2019-cu il** | | |
| Yanvar | 137,1 | 125,9 |
| Yanvar-fevral | 137,8 | 76,0 |
| Yanvar-mart | 105,0 | 85,0 |
| Yanvar-aprel | 85,8 | 102,6 |
| Yanvar-may | 91,2 | 92,1 |
| Yanvar-iyun | 110,0 | 92,0 |
| Yanvar-iyul | 155,4 | 92,5 |
| Yanvar-avqust | 178,0 | 88,9 |
| Yanvar-sentyabr | 177,2 | 91,5 |
| Yanvar-oktyabr | 137,1 | 106,8 |
| Yanvar-noyabr | 137,7 | 101,3 |
| Yanvar-dekabr | 151,8 | 101,1 |
| **2020-ci il** | | |
| Yanvar | 2,2 d. | 66,7 |
| Yanvar-fevral | 5,7 d. | 127,1 |
| Yanvar-mart | 3,9 d. | 118,3 |
| Yanvar-aprel | 2,6 d. | 120,6 |
| Yanvar-may | 194,6 | 126,5 |
| Yanvar-iyun | 166,6 | 103,8 |

Cədvəl 20

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazlar, ədəd | 41819 | 43,7 | 50 |
| Avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatlar, ədəd | 24476 | 12,2 d. | 90 |
| Qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları, ədəd | 10400 | 148,6 | 778 |
| 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqilləri, ton | 2038,1 | 2,3 d. | 3571,8 |
| 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton | 688,2 | 153,6 | 4313,0 |
| Məişət soyuducuları, ədəd | 330 | 43,4 | 82,0 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 146,2 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 96,1 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 57,2 faiz, maşın və avadanlıqların istehsalı isə 16,2 faiz artmışdır. Yanvar-iyun aylarında 873 ədəd və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 239 ədəd az minik avtomobili istehsal olunmuşdur.

Cədvəl 21

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2019-cu il** | | | |
| Yanvar | 2,1 d. | 2,9 d. | 111,9 |
| Yanvar-fevral | 180,8 | 3,0 d. | 95,5 |
| Yanvar-mart | 113,2 | 185,6 | 102,6 |
| Yanvar-aprel | 112,1 | 176,7 | 95,8 |
| Yanvar-may | 115,8 | 163,9 | 98,2 |
| Yanvar-iyun | 110,0 | 183,6 | 101,8 |
| Yanvar-iyul | 113,6 | 71,7 | 92,5 |
| Yanvar-avqust | 104,6 | 65,5 | 85,7 |
| Yanvar-sentyabr | 101,8 | 67,8 | 88,1 |
| Yanvar-oktyabr | 104,5 | 69,3 | 89,2 |
| Yanvar-noyabr | 105,2 | 75,7 | 90,0 |
| Yanvar-dekabr | 101,0 | 82,3 | 82,6 |
| **2020-ci il** | | | |
| Yanvar | 56,0 | 172,8 | 189,8 |
| Yanvar-fevral | 80,9 | 7,0 d. | 2,5 d. |
| Yanvar-mart | 84,0 | 7,3 d. | 166,7 |
| Yanvar-aprel | 76,2 | 4,7 d. | 135,1 |
| Yanvar-may | 91,8 | 2,3 d. | 137,6 |
| Yanvar-iyun | 116,2 | 196,1 | 157,2 |

Cədvəl 22

### Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobillərin istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Fəvvarə armaturu, ton | 31,1 | 34,8 | 3,8 |
| Ştanqlı quyu nasosları, ədəd | 2840 | 92,2 | 961 |
| Mancanaq dəzgahları, ədəd | 142 | 49,7 | 68 |
| Maye üçün nasoslar, maye qaldırıcıları, ədəd | 27 | 7,4 | - |
| Odsöndürənlər, ədəd | 2160 | 29,3 | - |
| Traktorlar, ədəd | 105 | 15,0 | 222 |
| Minik avtomobilləri, ədəd | 873 | 78,5 | 122 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda dövr ərzində 1013,1 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faizlik artım müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 0,5 faiz artaraq 153,9 milyon manat təşkil etmişdir.

Cədvəl 23

## Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir, milyon manat | 2019-cu ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1013,1 | 112,1 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 153,9 | 100,5 |

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2020-ci ilin yanvar-iyun aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.07.2020-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | | |
| Elektrik enerjisi, milyon kVt-saat | 12715,7 | 106,2 | - |
| ondan əmtəəlik | 12321,0 | 106,6 | - |
| su elektrik stansiyalarının istehsalı | 665,6 | 76,9 | - |
| istilik elektrik tansiyalarının istehsalı | 11580,0 | 109,1 | - |
| küləklə işləyən elektrik stansiyaların istehsalı | 53,1 | 92,0 | - |
| günəş enerjisi ilə işləyən elektrik stansiyaların istehsalı | 22,3 | 105,7 | - |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub metr | 129,0 | 56,7 | - |

# Tikinti

## Əsas kapitala yönəldilmiş vəsaitlər

2020-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5956,2 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 17,5 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 15,5 faiz azalmışdır. Ümumi sərmayənin 3977,8 milyon manatı və ya 66,8 faizi məhsul istehsalı sahələrinin, 1352,3 milyon manatı (22,7 faizi) xidmət sahələrinin, 626,1 milyon manatı (10,5 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 39,7 faizi dövlət, 60,3 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 60,1 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 58,8 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayədə müəssisə və təşkilatların vəsaitləri 3668,3 milyon manat, bank kreditləri 324,0 milyon manat, büdcə vəsaitləri 1325,0 milyon manat, büdcədənkənar dövlət fondlarının vəsaitləri 142,0 milyon manat, əhalinin şəxsi vəsaitləri 369,3 milyon manat, sair vəsaitlər 127,6 milyon manat təşkil etmişdir.

Cədvəl 25

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2020-ci ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **5956,2** | **97,3** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 3668,3 | 105.4 | 61,6 |
| Bank kreditləri | 324,0 | 77,3 | 5,4 |
| Büdcə vəsaitləri | 1325,0 | 77,8 | 22,2 |
| Büdcədənkənar fondların vəsaitləri | 142,0 | 158,9 | 2,4 |
| Əhalinin şəxsi vəsaiti | 369,3 | 90,5 | 6,2 |
| Sair vəsaitlər | 127,6 | 5,9 d. | 2,2 |

Qrafik 7

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2020-ci ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 54,3 faizi sənaye, 21,3 faizi tikinti, 11,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 2,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 1,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,4 faizi informasiya və rabitə, 1,2 faizi təhsil, 0,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, hər birində 0,5 faiz olmaqla ticarət; nəqliyyat vasitələrinin təmiri, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,4 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, hər birində 0,3 faiz olmaqla maliyyə və sığorta fəaliyyəti, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 0,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilmişdir.

Cədvəl 26

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri**

| İqtisadiyyatın sahələri | 2020-ci ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **5956,2** | **97,3** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **106,6** | **51,5** | **1,8** |
| **Sənaye** | **3231,6** | **108,7** | **54,3** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 2664,7 | 117,2 | 44,8 |
| Emal sənayesi | 305,6 | 91,2 | 5,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 131,3 | 76,4 | 2,2 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 130,0 | 67,9 | 2,2 |
| **Tikinti** | **1265,7** | **96,6** | **21,3** |
| ondan mənzil tikintisi | 641,5 | 109,8 | 10,8 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **29,8** | **112,7** | **0,5** |

...ardı

| İqtisadiyyatın sahələri | 2020-ci ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **680,9** | **75,7** | **11,4** |
| o cümlədən: nəqliyyat | 680,6 | 75,8 | 11,4 |
| poçt və kuryer fəaliyyəti | 0,3 | 32,2 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **33,2** | **90,8** | **0,6** |
| **İnformasiya və rabitə** | **84,6** | **59,6** | **1,4** |
| ondan rabitə | 76,9 | 55,2 | 1,3 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **18,3** | **2,7 d.** | **0,3** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **1,0** | **12,9** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **221,1** | **6,3 d.** | **3,7** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **21,4** | **47,8** | **0,4** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **126,6** | **66,5** | **2,1** |
| **Təhsil** | **72,9** | **58,8** | **1,2** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **29,8** | **44,5** | **0,5** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **20,5** | **124,8** | **0,3** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **12,2** | **32,4** | **0,2** |

2020-ci ilin yanvar-iyun aylarında neft-qaz sektoruna 2778,4 milyon manatlıq vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilmiş 3177,8 milyon manatlıq vəsaitin 452,0 milyon manatı (ümumi sərmayənin 7,6 faizi) qeyri neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

Cədvəl 27

**Neft-qaz və qeyri neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər**

| 2020-ci il | Neft-qaz sektoru | | Qeyri neft-qaz sektoru | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə |
| Yanvar | 475,2 | 47,7 | 521,5 | 52,3 |
| Fevral | 462,3 | 47,7 | 506,2 | 52,3 |
| Mart | 505,1 | 52,4 | 459,1 | 47,6 |
| Aprel | 364,1 | 37,4 | 610,0 | 62,6 |
| May | 494,5 | 49,2 | 509,6 | 50,8 |
| İyun | 477,2 | 46,6 | 571,4 | 53,4 |

2020-ci ilin yanvar-iyun aylarında Bakı şəhərində “Yeni klinika” tibb müəssisəsi, 3 saylı DOST mərkəzi, modul tipli xəstəxana kompleksi, “Əhmədli” elektrik yarımstansiyası, Naxçıvan Muxtar Respublikasında 2 ambulatoriya-poliklinika müəssisəsi, Sumqayıt şəhərində 2 tibbi maska istehsalı müəssisəsi, qoruyucu kombinezonların istehsalı müəssisəsi, modul tipli xəstəxana, Gəncə şəhərində tikinti materialları istehsalı zavodu, Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu, 200 çarpayılıq xəstəxana binası, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusu, Mingəçevir şəhərində Dövlət Rəmzləri Muzeyi, Şəki şəhərində 200 çarpayılıq xəstəxana binası, Abşeron rayonunda modul tipli xəstəxana, Ağcabədi rayonunda “Asan Həyat” kompleksi, dənli bitki toxumlarının emalı zavodu, Ağstafa rayonunda “Azərxalça” ASC-nin filialı, Aqrar Sənaye Kompleksi, Goranboy rayonunda “Azərxalça” ASC-nin filialı, Kürdəmir rayonunda “Asan Həyat” kompleksi, “Azərxalça” ASC-nin filialı, Qazax rayonunda əhəng zavodu, “Azərxalça” ASC-nin filialı, Tərtər rayonunda Olimpiya İdman Kompleksi, Dövlət Rəmzləri Muzeyi, “Azərxalça” ASC-nin filialı, Tovuz rayonunda “Asan Həyat” kompleksi, “Azərxalça” ASC-nin filialı, Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Dövlət Rəmzləri Muzeyi, Şəmkir rayonunda “Şəmkirçay” Sutəmizləyici Qurğular

Kompleksi və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 2454,4 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 28

**Daxili və xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər**

| 2020-ci il | Daxili mənbələr üzrə | | Xarici mənbələr üzrə | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə | milyon manat | ümumi yekunda xüsusi çəkisi, faizlə |
| Yanvar | 609,1 | 61,1 | 387,6 | 38,9 |
| Fevral | 536,3 | 55,4 | 432,2 | 44,6 |
| Mart | 558,1 | 57,9 | 406,1 | 42,1 |
| Aprel | 634,8 | 65,2 | 339,3 | 34,8 |
| May | 553,3 | 55,1 | 450,8 | 44,9 |
| İyun | 610,2 | 58,8 | 438,4 | 41,2 |

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 2174,0 milyon manatı (88,6 faizi) Birləşmiş Krallıq, ABŞ, Türkiyə, Yaponiya, Norveç, Malayziya, İsveçrə, Rusiya və İran sərmayədarlarına məxsus olmuşdur.

2020-ci ilin yanvar-iyun aylarında tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 62,4 faizini tikinti, yenidənqurma və genişləndirmə, 10,1 faizini əsaslı təmir, 8,1 faizini cari təmir, 19,4 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 84,6 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 8

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)



# Kənd təsərrüfatı

2020-ci ilin yanvar-iyun ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4082,7 milyon manat təşkil etmişdir ki, onun da 2085,6 milyon manatı heyvandarlıq, 1997,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Qrafik 9

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 2,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 1,1 faiz artmışdır.

Cədvəl 29

**Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası**

| | **Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə** | | |
|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən:** | |
| | | **heyvandarlıq məhsulları** | **bitkiçilik məhsulları** |
| **2019-cu il** | | | |
| Yanvar | 102,4 | 101,2 | 143,6 |
| Yanvar-fevral | 103,6 | 102,5 | 143,7 |
| Yanvar-mart | 103,6 | 102,8 | 124,7 |
| Yanvar-aprel | 103,9 | 102,9 | 122,2 |
| Yanvar-may | 106,7 | 102,9 | 124,9 |
| Yanvar-iyun | 113,0 | 102,9 | 125,6 |
| Yanvar-iyul | 106,3 | 103,1 | 109,5 |
| Yanvar-avqust | 106,2 | 103,1 | 109,2 |
| Yanvar-sentyabr | 107,1 | 103,1 | 111,0 |
| Yanvar-oktyabr | 107,2 | 103,2 | 111,4 |
| Yanvar-noyabr | 107,1 | 103,2 | 111,3 |
| Yanvar-dekabr | 107,2 | 103,5 | 111,7 |
| **2020-ci il** | | | |
| Yanvar | 103,6 | 103,2 | 112,5 |
| Yanvar-fevral | 103,6 | 103,2 | 112,7 |
| Yanvar-mart | 103,7 | 103,2 | 113,4 |
| Yanvar-aprel | 103,8 | 103,2 | 113,5 |
| Yanvar-may | 103,6 | 103,2 | 105,3 |
| Yanvar-iyun | 102,2 | 103,2 | 101,1 |

**Bitkiçilik.** Ölkədə yaz tarla işləri başa çatmışdır. 2020-ci il iyul ayının 1-nə kimi 393,8 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 61,9 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 34,6 min hektarı dən üçün qarğıdalı), 57,0 min hektar sahədə kartof, 66,5 min hektar sahədə tərəvəz, 20,0 min hektar sahədə bostan bitkiləri, 100,3 min hektar sahədə pambıq, 11,4 min hektar sahədə dən üçün günəbaxan, 5,0 min hektar sahədə şəkər çuğunduru, 3,1 min hektar sahədə tütün, 65,2 min hektar sahədə çoxillik otlar, 1,1 min hektar sahədə birillik otlar və 2,3 min hektar sahədə sair yazlıq bitkilər əkilmişdir.

Qrafik 10

**Yazlıq bitkilərin əkin sahəsinin quruluşu**



Cədvəl 30

## Yazlıq bitkilərin əkini

hektar

| | Yanvar-iyun | | 2020-ci il 2019-cu ilə nisbətən faizlə |
|---|---|---|---|
| | 2020 | 2019 | |
| **Yaz əkininin əvvəlindən əkilmişdir** | **393 799,3** | **421 572,6** | **93,4** |
| Dənlilər və dənli paxlalı bitkilər (qarğıdalısız) | 25 570,9 | 41 424,6 | 61,7 |
| onlardan: buğda | 454,0 | 8 298,6 | 5,5 |
| vələmir | 5 872,3 | 5 486,6 | 107,0 |
| çəltik | 3 001,4 | 4 036,7 | 74,4 |
| Qarğıdalı – cəmi | 36 303,6 | 34 952,2 | 103,9 |
| o cümlədən dən üçün | 34 602,6 | 32 840,2 | 105,4 |
| Pambıq | 100 294,6 | 100 111,7 | 100,2 |
| Dən üçün günəbaxan | 11 395,6 | 16 551,1 | 68,9 |
| Tütün | 3 144,0 | 3 134,3 | 100,3 |
| Şəkər çuğunduru (emal üçün) | 4 974,9 | 7 345,9 | 67,7 |
| Kartof | 56 988,0 | 56 921,2 | 100,1 |
| Tərəvəz | 66 543,6 | 69 175,6 | 96,2 |
| Bostan bitkiləri | 20 005,3 | 21 359,0 | 93,7 |
| Yemlik kökümeyvəlilər | - | 12,5 | - |
| Birillik otlar | 1 085,5 | 1 868,8 | 58,1 |
| Çoxillik otlar | 65 217,4 | 66 073,8 | 98,7 |
| Sair yazlıq bitkilər | 2 275,9 | 2 641,9 | 86,1 |

2020-ci il iyul ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 2372,6 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 6,7 faiz az dənlilər və dənli paxlalı bitkilər, 368,3 min ton (9,7 faiz çox) kartof, 716,9 min ton (6,2 faiz çox) tərəvəz, 76,6 min ton (39,8 faiz çox) bostan məhsulları, 131,9 min ton (5,3 faiz çox) meyvə və giləmeyvə, 1326,0 ton (6,4 faiz çox) tütün, 422,2 ton (25,0 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

2020-ci il iyul ayının 1-nə ölkədə ümumi sahəsi 1,4 min hektar olan 3233 vahid istixana fəaliyyət göstərmişdir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında istixanalarda yetişdirilən əsas məhsullardan olan pomidorun istehsalı 4,2 faiz artaraq 181,8 min ton, xiyarın istehsalı isə 10,5 faiz artaraq 10,7 min ton olmuşdur.

**Heyvandarlıq.** 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında quş əti də daxil olmaqla diri çəkidə ət istehsalı 3,1 faiz artaraq 260,4 min ton, süd istehsalı 1,9 faiz artaraq 1056,7 min ton, yumurta istehsalı 7,0 faiz artaraq 991,5 milyon ədəd və yun istehsalı 0,1 faiz artaraq 14,6 min ton olmuşdur. Bundan başqa, ölkədə 445,9 ton barama istehsal olunmuşdur.

Cədvəl 31

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı,** min ton

| | **Ət (diri çəkidə)** | **Süd** | **Yumurta, milyon ədəd** | **Yun** |
|---|---|---|---|---|
| **2019-cu il** | | | | |
| Yanvar | 40,7 | 152,5 | 144,2 | - |
| Yanvar-fevral | 80,5 | 304,9 | 283,0 | - |
| Yanvar-mart | 122,9 | 467,5 | 442,4 | - |
| Yanvar-aprel | 166,1 | 649,8 | 597,8 | 2,3 |
| Yanvar-may | 201,4 | 845,9 | 765,5 | 12,2 |
| Yanvar-iyun | 252,5 | 1 037,2 | 926,9 | 14,6 |
| Yanvar-iyul | 289,3 | 1 219,2 | 1 093,4 | 14,9 |
| Yanvar-avqust | 332,6 | 1 386,0 | 1 242,2 | 15,4 |
| Yanvar-sentyabr | 375,5 | 1 574,0 | 1 386,1 | 15,8 |
| Yanvar-oktyabr | 429,9 | 1 751,4 | 1 531,7 | 15,9 |
| Yanvar-noyabr | 476,6 | 1 938,7 | 1 669,9 | 15,9 |
| Yanvar-dekabr | 573,3 | 2 150,8 | 1 827,1 | 16,1 |
| **2020-ci il** | | | | |
| Yanvar | 41,9 | 154,8 | 160,3 | - |
| Yanvar-fevral | 82,9 | 309,7 | 315,7 | - |
| Yanvar-mart | 126,6 | 475,6 | 485,3 | - |
| Yanvar-aprel | 171,2 | 659,9 | 653,2 | 2,3 |
| Yanvar-may | 207,5 | 859,4 | 836,3 | 12,2 |
| Yanvar-iyun | 260,4 | 1 056,7 | 991,5 | 14,6 |

2020-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə 8395,7 min baş qoyun və keçi, 2666,8 min baş iribuynuzlu mal-qara, o cümlədən 1286,2 min baş inək və camış mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 48,2 faizini inək və camışlar təşkil edir.

Cari ilin yanvar-iyun aylarında quşçuluq müəssisələrində diri çəkidə 36,4 min ton (keçən il 33,8 min ton) quş əti və 402,0 milyon ədəd (keçən il 359,0 milyon ədəd) yumurta istehsal olunmuşdur. Ümumilikdə, bu müəssisələr üzrə cəmi quşların sayı 12155,8 min baş olmuş, hər yumurtlayan toyuqdan orta hesabla 101 ədəd yumurta alınmışdır.

Qrafik 11

**Mal-qaranın sayı,**
**iyulun 1-i vəziyyətinə,** min baş



# Nəqliyyat

Cari ilin yanvar-iyun aylarında yük və sərnişin daşımaları ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 14,1 faiz və 28,7 faiz azalmışdır.

2020-ci ilin yanvar-iyun ayları ərzində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 96,3 milyon ton yük daşınmışdır. Yüklərin 3,2 faizi dəniz, 7,5 faizi dəmir yolu, 0,2 faizi hava, 58,4 faizi avtomobil nəqliyyatı, 30,7 faizi isə boru kəməri ilə daşınmışdır.

Qrafik 12

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu,** faizlə




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 17,9 faiz azalmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 78,2 faiz təşkil etmişdir.

2020-ci ilin yanvar-iyun aylarında nəqliyyatçılar 690,0 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 90,5 faizi avtomobil nəqliyyatı, 9,3 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2020-ci ilin yanvar-iyun ayları ərzində 7,2 milyon ton yük, 1323,3 min sərnişin daşınmış, 2019-cu ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 3,1 faiz artım, sərnişin daşınmasında isə 16,1 faiz azalma müşahidə olunmuşdur.

Orta hesabla sutkada 315 vaqon yüklənmiş, 370 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 14,4 min ton, Qərb istiqaməti üzrə 3,4 min ton, Cənub istiqaməti üzrə isə 0,8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2020-ci ilin yanvar-iyun aylarında daşınmış yüklərin həcmi 3047,9 min ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,2 faiz azalmışdır. Yüklərin 33,4 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 4498,6 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 4279,0 min tonunu və ya 95,1 faizini tranzit yüklər təşkil etmişdir.

2020-ci il iyul ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 119,4 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2019-cu ilin müvafiq dövrünə nisbətən 2,2 faiz azalaraq 8,7 min nəfər olmuşdur.

Qrafik 13

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi,** min ton



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 56,3 milyon ton yük, 624,1 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 22,1 faiz və 26,4 faiz azalma qeydə alınmışdır. Sərnişinlərin 96,2 faizi avtobus, 3,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 22,0 faiz, sərnişin dövriyyəsi isə 24,0 faiz azalmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 45,0 faiz azalaraq 64,1 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 446,8 min və ya 60,4 faiz az sərnişin daşınmış, daşımaların 99,6 faizi dövlət, 0,4 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 2,2 dəfə artaraq 186,2 min ton olmuşdur.

**Magistral neft kəmərləri** ilə 18356,7 min ton neft nəql edilmişdir. Nəqletmənin 80,0 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-iyun ayları ərzində bu kəmər vasitəsilə 14685,9 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 2100,2 min ton tranzit nefti də nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 15589,8 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,2 faiz artım müşahidə olunmuşdur. Qazın nəqlinin 37,4 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 5831,2 milyon kub-metr qaz ötürülmüşdür.

2020-ci ilin yanvar-may aylarında **Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 18826,1 min ton, yük dövriyyəsi isə 4179,1 milyon ton-km olmuşdur. Yüklərin 11217,1 min tonu və ya 59,6 faizi avtomobil nəqliyyatı, 5450,1 min tonu və ya 28,9 faizi dəmir yolu nəqliyyatı, 2158,9 min tonu və ya 11,5 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 19,5 faizini və ya 3677,7 min tonunu tranzit yüklər təşkil etmişdir.

## İnformasiya və rabitə

Bu sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 4,4 faiz artaraq 1042,8 milyon manat təşkil etmişdir ki, onun da 72,0 faizi əhali tərəfindən istehlak olunmuşdur. Bu sahədə əldə edilmiş gəlirin 80,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə edilən gəlirin 42,0 faizi və ya 438,2 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

# İstehlak bazarı

2020-ci ilin yanvar-iyun aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 22,0 milyard manat olmaqla 2019-cu ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 6,4 faiz azalmışdır.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 2019-cu ilin birinci yarısı ilə müqayisədə 6,1 faiz azalaraq 21,2 milyard manata bərabər olmuş, onun 48,3 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

Cədvəl 32

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2020-ci ilin yanvar-iyun ayları, milyon manatla | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **21 962,7** | **93,6** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 789,7 | 87,4 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 21 173,0 | 93,9 |
| ondan: fərdi sahibkarlar üzrə | 10 224,0 | 96,1 |

Hesabat dövründə istehlak bazarında bir istehlakçı orta hesabla ayda 367,5 manat və ya 2019-cu ilin eyni dövrünün göstəricisindən nominal ifadədə 16,3 manat az vəsait xərcləmişdir.

# Məhsul bazarı

2020-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 18245,7 milyon manatlıq, o cümlədən 9729,7 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8516,0 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə 1,9 faiz, o cümlədən qeyri-ərzaq malları üzrə 6,9 faiz azalmış, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə 3,1 faiz artmışdır.

Cədvəl 33

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2020-ci ilin yanvar-iyun aylarında, milyon manatla | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **18 245,7** | **100,0** | **98,1** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 9 729,7 | 53,3 | 103,1 |
| qeyri-ərzaq malları | 8 516,0 | 46,7 | 93,1 |

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 305,3 manat və ya 2019-cu ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 2,0 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 162,8 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 142,5 manatlıq qeyri-ərzaq malları almışdır.

Cədvəl 34

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsi | o cümlədən | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq malları üzrə |
| **2019-cu il** | | | |
| Yanvar | 102,7 | 102,4 | 103,1 |
| Yanvar-fevral | 102,6 | 102,3 | 103,0 |
| Yanvar-mart | 102,7 | 102,4 | 103,1 |
| Yanvar-aprel | 102,7 | 102,3 | 103,0 |
| Yanvar-may | 102,8 | 102,4 | 103,1 |
| Yanvar-iyun | 102,8 | 102,5 | 103,1 |
| Yanvar-iyul | 102,9 | 102,5 | 103,2 |
| Yanvar-avqust | 102,9 | 102,6 | 103,2 |
| Yanvar-sentyabr | 103,0 | 102,6 | 103,3 |
| Yanvar-oktyabr | 103,1 | 102,7 | 103,4 |
| Yanvar-noyabr | 103,5 | 103,1 | 103,9 |
| Yanvar-dekabr | 103,6 | 103,2 | 104,0 |
| **2020-ci il** | | | |
| Yanvar | 103,2 | 102,7 | 103,6 |
| Yanvar-fevral | 103,1 | 102,6 | 103,6 |
| Yanvar-mart | 101,2 | 102,9 | 99,5 |
| Yanvar-aprel | 98,1 | 102,6 | 93,5 |
| Yanvar-may | 98,3 | 103,2 | 93,3 |
| Yanvar-iyun | 98,1 | 103,1 | 93,1 |

Cədvəl 35

## Pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu

| | 2020-ci ilin yanvar-iyun aylarında satışdan gəlir, milyon manatla | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **18 245,7** | **98,1** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 9 729,7 | 103,1 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 2 678,9 | 80,6 |
| elektrik malları və mebellər | 1 005,6 | 94,1 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 138,5 | 99,5 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 319,6 | 134,5 |
| avtomobil benzini və dizel yanacağı | 988,1 | 99,8 |
| digər qeyri-ərzaq malları | 3 385,3 | 99,5 |

2020-ci ilin birinci yarısında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 53,3 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 14,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,5 faizi elektrik malları və mebellərin, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 1,7 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Cədvəl 36

## Məhsul bazarı üzrə əsas göstəricilər

| | 2020-ci ilin yanvar-iyun ayları, milyon manatla | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **18 245,7** | **98,1** |
| o cümlədən: müəssisələr üzrə | 4 285,9 | 115,1 |
| fərdi sahibkarlar üzrə | 9 189,6 | 100,7 |
| bazar və yarmarkalar üzrə | 4 770,2 | 82,8 |

Qrafik 14

## 2020-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu



Qrafik 15

**Pərakəndə ticarət şəbəkəsində istehlak məhsullarının satışı və qiymət indeksinin dinamikası**

(əvvəlki aya nisbətən, faizlə)



# İctimai iaşə xidmətləri

Dünyada koronavirus infeksiyasının sürətlə yayılması əksər ölkələrin turizm sektoruna da öz mənfi təsirini göstərmişdir. Bu hal ölkəmizdə də müşahidə olunmuş və cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə turizm infrastrukturunun əsas elementlərindən olan ictimai iaşə müəssisələrinin göstəricilərində azalma qeydə alınmışdır. Azalmanın əsas səbəbi koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası ərazisində ictimai iaşə obyektlərinin fəaliyyətinə qoyulan məhdudiyyətlər, həmçinin Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması ilə əlaqədar ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayında müşahidə olunmuş kəskin azalma (cari ilin mart, aprel, may və iyun ayları ötən ilin eyni ayları ilə müqayisədə müvafiq olaraq 2,6 dəfə, 12,1 dəfə, 9,9 dəfə, 12,0 dəfə) nəticəsində mart, aprel, may və iyun aylarında ötən ilin eyni ayları ilə müqayisədə ictimai iaşə xidmətlərinin həcminin azalması olmuşdur. Cari ilin iyun ayında ictimai iaşə dövriyyəsi ötən ilin iyun ayı ilə müqayisədə 4,3 dəfə azalmışdır. Nəticədə ictimai iaşə xidmətlərinin həcmi ötən ilin yanvar-iyun ayları ilə müqayisədə 45,6 faiz azalaraq 377,1 milyon manat olmuşdur.

Cədvəl 37

**İctimai iaşə dövriyyəsi**

| | 2020-ci ilin yanvar-iyun aylarında, min manat | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **377 140,4** | **54,4** |
| o cümlədən:<br>dövlət | 3 615,4 | 49,9 |
| qeyri-dövlət | 373 525,0 | 54,5 |
| ondan:<br>fiziki şəxslər | 204 156,9 | 50,3 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 45,3 faizi hüquqi şəxslərin, 54,7 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə 39,4 faiz azalaraq 169,4 milyon manat olmuşdur.

## Əhaliyə göstərilən ödənişli xidmətlər

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə ölkənin rayon və şəhərləri arasında vətəndaşların səfərlərinə qoyulan məhdudiyyətlərin təsiri nəticəsində cari ilin mart, aprel, may və iyun aylarında sərnişin daşınmasında müşahidə olunan ciddi azalmalar, həmçinin bir sıra xidmət sahələrinin fəaliyyətinə qoyulmuş məhdudiyyətlərlə əlaqədar əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz azalaraq 3339,9 milyon manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 2509,6 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 75,1 faizini təşkil etmişdir.

Cədvəl 38

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2020-ci ilin yanvar-iyun aylarında, milyon manat | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **3 339,9** | **80,8** |
| dövlət | 769,4 | 87,8 |
| qeyri-dövlət | 2 570,5 | 79,0 |
| ondan: fiziki şəxslər | 830,3 | 75,3 |

Cari ilin yanvar-iyun aylarında hər bir ölkə sakini orta hesabla 335,3 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə

müqayisədə nominal ifadədə 78,7 manat az müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

Cədvəl 39

**Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2019-cu il** | | | |
| Yanvar | 100,8 | 100,5 | 101,6 |
| Yanvar-fevral | 100,7 | 100,5 | 101,0 |
| Yanvar-mart | 100,8 | 100,8 | 100,8 |
| Yanvar-aprel | 101,0 | 101,0 | 100,7 |
| Yanvar-may | 101,2 | 101,3 | 101,1 |
| Yanvar-iyun | 101,5 | 101,5 | 101,3 |
| Yanvar-iyul | 101,8 | 101,9 | 101,6 |
| Yanvar-avqust | 102,0 | 102,0 | 101,8 |
| Yanvar-sentyabr | 102,1 | 102,1 | 101,9 |
| Yanvar-oktyabr | 102,3 | 102,3 | 102,2 |
| Yanvar-noyabr | 102,5 | 102,5 | 102,5 |
| Yanvar-dekabr | 103,1 | 103,1 | 103,4 |
| **2020-ci il** | | | |
| Yanvar | 104,8 | 105,4 | 103,0 |
| Yanvar-fevral | 105,0 | 105,4 | 103,9 |
| Yanvar-mart | 94,5 | 95,2 | 92,9 |
| Yanvar-aprel | 90,3 | 91,8 | 86,3 |
| Yanvar-may | 85,1 | 86,9 | 80,4 |
| Yanvar-iyun | 80,8 | 82,9 | 75,3 |

Qrafik 16

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə qiymət və fiziki həcm indeksləri**

(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 40

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| İstehlak qiymətləri indeksi | 99,7 | 103,0 | 103,0 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 133,1 | 73,8 | 69,6 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 98,8 | 109,6 | 108,8 |
| Nəqliyyat xidmətlərinin qiymət indeksi | 99,9 | 100,4 | 101,5 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,0 | 99,9 | 99,9 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 100,0 | 100,0 |

Qrafik 17

## **İstehlak və istehsalçı qiymət indeksləri,** faizlə



Qrafik 18

**İstehlak qiymətləri indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




## İstehlak qiymətləri indeksi

2020-ci ilin iyun ayında istehlak qiymətləri indeksi may ayı ilə müqayisədə 99,7 faiz, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 103,0 faiz təşkil etmişdir.

Cədvəl 41

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2019-cu il** | | | | | | |
| Yanvar | 100,2 | 101,7 | 101,7 | 100,9 | 100,7 | 100,7 |
| Fevral | 100,6 | 102,1 | 101,9 | 101,1 | 101,4 | 101,0 |
| Mart | 100,6 | 102,5 | 102,1 | 101,3 | 102,3 | 101,5 |
| **I rüb** | **101,5** | **-** | **102,1** | **103,7** | **-** | **101,5** |
| Aprel | 100,4 | 103,1 | 102,4 | 100,8 | 103,5 | 102,0 |
| May | 99,6 | 102,7 | 102,4 | 98,9 | 103,8 | 102,3 |
| İyun | 99,5 | 102,9 | 102,5 | 98,9 | 104,3 | 102,7 |
| **II rüb** | **100,5** | **-** | **102,9** | **100,9** | **-** | **103,9** |
| İyul | 100,1 | 103,6 | 102,7 | 100,0 | 105,9 | 103,1 |
| Avqust | 99,7 | 102,4 | 102,6 | 99,2 | 104,7 | 103,3 |
| Sentyabr | 100,3 | 102,5 | 102,6 | 100,7 | 105,1 | 103,5 |
| **III rüb** | **99,5** | **-** | **102,8** | **98,6** | **-** | **105,2** |

…ardı…

| | Cəmi məhsullar və xidmətlər | | | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Oktyabr | 100,4 | 102,7 | 102,6 | 100,2 | 105,0 | 103,7 |
| Noyabr | 100,5 | 102,6 | 102,6 | 100,9 | 104,8 | 103,8 |
| Dekabr | 100,5 | 102,4 | 102,6 | 101,1 | 104,2 | 103,8 |
| **IV rüb** | **101,0** | - | **102,6** | **101,4** | - | **104,7** |
| **2020-ci il** | | | | | | |
| Yanvar | 100,6 | 102,7 | 102,7 | 101,3 | 104,6 | 104,6 |
| Fevral | 100,7 | 102,9 | 102,8 | 101,6 | 105,1 | 104,9 |
| Mart | 101,0 | 103,3 | 103,0 | 102,2 | 106,0 | 105,2 |
| **I rüb** | **101,9** | - | **103,0** | **104,2** | - | **105,2** |
| Aprel | 100,1 | 103,0 | 103,0 | 100,7 | 106,0 | 105,4 |
| May | 99,5 | 102,9 | 102,9 | 98,7 | 105,7 | 105,5 |
| İyun | 99,7 | 103,0 | 103,0 | 98,5 | 105,3 | 105,5 |
| **II rüb** | **100,5** | **-** | **103,0** | **101,3** | | **105,7** |

| | Qeyri-ərzaq məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2019-cu il** | | | | | | |
| Yanvar | 100,2 | 101,2 | 101,2 | 99,2 | 103,4 | 103,4 |
| Fevral | 100,1 | 101,2 | 101,2 | 100,2 | 103,7 | 103,5 |
| Mart | 100,1 | 101,3 | 101,2 | 100,1 | 103,7 | 103,6 |
| **I rüb** | **100,4** | - | **101,2** | **99,5** | **-** | **103,6** |
| Aprel | 100,1 | 101,4 | 101,2 | 100,1 | 103,8 | 103,7 |
| May | 100,0 | 101,3 | 101,3 | 100,1 | 102,2 | 103,4 |
| İyun | 100,0 | 101,3 | 101,3 | 100,0 | 102,3 | 103,2 |
| **II rüb** | **100,1** | - | **101,3** | **100,3** | - | **102,8** |
| İyul | 100,2 | 101,4 | 101,3 | 100,1 | 102,3 | 103,0 |
| Avqust | 100,0 | 101,2 | 101,3 | 100,1 | 100,1 | 102,7 |
| Sentyabr | 100,1 | 101,2 | 101,3 | 100,0 | 100,1 | 102,4 |
| **III rüb** | **100,2** | - | **101,2** | **100,1** | - | **100,8** |
| Oktyabr | 100,1 | 101,0 | 101,2 | 100,9 | 100,9 | 102,2 |
| Noyabr | 100,2 | 101,0 | 101,2 | 100,1 | 100,9 | 102,1 |
| Dekabr | 100,1 | 101,0 | 101,2 | 100,1 | 100,9 | 102,0 |
| **IV rüb** | **100,4** | - | **101,0** | **101,0** | - | **100,9** |

…sonu

| | Qeyri-ərzaq məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2020-ci il** | | | | | | |
| Yanvar | 100,3 | 101,1 | 101,1 | 99,8 | 101,5 | 101,5 |
| Fevral | 100,1 | 101,1 | 101,1 | 100,1 | 101,4 | 101,4 |
| Mart | 100,2 | 101,2 | 101,2 | 100,0 | 101,2 | 101,4 |
| **I rüb** | **100,5** | - | **101,2** | **99,9** | - | **101,4** |
| Aprel | 100,1 | 101,3 | 101,2 | 99,3 | 100,4 | 101,1 |
| May | 100,1 | 101,4 | 101,2 | 100,0 | 100,4 | 101,0 |
| İyun | 100,1 | 101,5 | 101,3 | 100,9 | 101,2 | 101,0 |
| **II rüb** | **100,3** | - | **101,4** | **99,6** | - | **100,7** |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 2020-ci ilin iyun ayında may ayı ilə müqayisədə 100,2 faiz, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 102,2 faiz təşkil etmişdir.

Qrafik 19

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



2020-ci ilin iyun ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi may ayı ilə müqayisədə 98,5 faiz, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 105,5 faiz təşkil etmişdir.

Cədvəl 42

**Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının istehlak qiymətləri indeksləri**

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün: 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Çörək, çörək məmulatları və yarmalar | 100,2 | 103,9 | 103,9 | 101,2 |
| Ət və ət məhsulları | 100,0 | 104,7 | 103,9 | 100,9 |
| Balıq və balıq məhsulları | 99,3 | 105,2 | 105,7 | 103,3 |
| Süd və süd məhsulları, yumurta | 102,2 | 107,0 | 107,0 | 102,9 |
| Kərə və bitki yağları | 100,0 | 99,8 | 100,4 | 102,0 |
| Meyvələr | 101,0 | 111,6 | 108,3 | 93,5 |
| Tərəvəzlər | 85,2 | 104,8 | 110,2 | 108,8 |
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,0 | 100,4 | 100,7 | 100,8 |
| Digər kateqoriyalara aid edilməyən ərzaq məhsulları | 100,1 | 101,2 | 101,5 | 101,6 |
| Çay, qəhvə, kakao | 100,0 | 101,0 | 100,9 | 103,6 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,3 | 102,0 | 102,8 | 102,3 |
| Araq, brendi (konyak) | 100,2 | 102,1 | 102,2 | 110,6 |
| Tütün məmulatları | 100,0 | 114,9 | 114,6 | 120,1 |

2020-ci ilin iyun ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi may ayı ilə müqayisədə 100,1 faiz, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 101,3 faiz təşkil etmişdir.

Cədvəl 43

## Qeyri-ərzaq məhsullarının istehlak qiymətləri indeksləri

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün: 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Parçalar | 102,0 | 104,0 | 102,2 | 104,2 |
| Geyim | 100,1 | 102,2 | 101,4 | 101,1 |
| Ayaqqabı | 100,2 | 101,8 | 101,6 | 101,1 |
| İnşaat materialları | 100,0 | 101,5 | 101,6 | 102,4 |
| Mebel və ev əşyaları | 100,1 | 101,5 | 101,8 | 102,1 |
| Xalça və digər döşəmə örtükləri | 100,4 | 102,4 | 102,8 | 102,1 |
| Məişət cihazları | 100,0 | 100,3 | 100,1 | 100,2 |
| Kiçik elektrik cihazları | 100,0 | 100,8 | 100,6 | 101,7 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 100,3 | 102,7 | 102,6 | 102,3 |
| Evə qulluq etmək üçün lazım olan məhsullar (yuyucu vasitələr və s.) | 100,1 | 102,0 | 101,5 | 102,3 |
| Dərmanlar | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Müalicə ləvazimatları və cihazları | 100,7 | 102,6 | 102,5 | 103,5 |
| Minik avtomobilləri | 100,0 | 100,2 | 99,3 | 97,6 |
| Velosipedlər | 100,7 | 103,2 | 102,9 | 101,7 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,1 | 101,3 | 101,2 | 101,0 |
| Yanacaq məhsulları (benzin və dizel yanacağı) | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Telefon aparatları | 99,6 | 98,2 | 98,5 | 99,5 |
| Foto-kino avadanlıqları və optik cihazlar | 99,9 | 100,2 | 99,8 | 99,2 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (kalkulyator, fərdi kompüter, noutbuk, planşet) | 100,0 | 100,1 | 100,1 | 100,3 |
| Oyuncaqlar | 100,6 | 102,7 | 102,5 | 102,7 |

…ardı

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün: 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət vaxtı istifadə etmək üçün əşyalar | 100,0 | 103,8 | 103,8 | 100,9 |
| Kitablar | 100,0 | 99,2 | 97,7 | 98,9 |
| Qəzetlər və digər dövri nəşrlər | 100,0 | 100,4 | 100,2 | 100,4 |
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 100,0 | 101,7 | 102,0 | 105,9 |
| Şəxsi gigiyena əşyaları, saç qurutmaq üçün fenlər | 100,2 | 101,4 | 101,1 | 101,5 |
| Zərgərlik məmulatları | 100,1 | 103,2 | 102,7 | 100,9 |
| Sair şəxsi istifadə əşyaları | 100,0 | 101,8 | 101,2 | 101,5 |

2020-ci ilin iyun ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi may ayı ilə müqayisədə 100,9 faiz, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 101,0 faiz təşkil etmişdir.

Cədvəl 44

## Əhaliyə göstərilmiş ödənişli xidmətlərin istehlak qiymətləri indeksləri

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün: 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 100,0 | 101,7 | 102,1 | 102,1 |
| Ayaqqabıların təmiri | 100,0 | 101,5 | 101,5 | 100,6 |
| İcarəçi tərəfindən ödənilmiş icarə haqqı | 100,0 | 102,1 | 103,2 | 102,9 |
| Soyuq su təchizatı xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Zibilin daşınması xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Kanalizasiya xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Elektrik enerjisi təchizatı xidməti | 114,3 | 100,0 | 95,8 | 100,0 |
| Təbii qaz təchizatı xidməti | 100,0 | 106,7 | 106,7 | 100,4 |
| Mərkəzi isitmə xidməti | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 100,0 | 101,0 | 101,1 | 101,3 |
| Məişət cihazlarının təmiri | 100,0 | 101,4 | 101,8 | 101,3 |
| Ev və məişət xidmətləri | 100,0 | 101,0 | 100,5 | 101,9 |
| Tibbi xidmətlər | 100,0 | 103,5 | 103,6 | 102,3 |
| Stomatoloji xidmətlər | 100,4 | 102,4 | 102,7 | 101,7 |
| Xəstəxana xidmətləri | 100,0 | 101,0 | 101,1 | 99,8 |
| Avtomobillərin təmiri | 100,0 | 100,7 | 100,9 | 101,7 |
| Dəmir yolu nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 95,5 | 99,4 | 103,5 |
| Metro nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 100,0 | 100,0 | 150,0 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 100,0 | 100,0 | 124,5 |

…ardı

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün: 2019-cu ilin yanvar-iyun ayları 2018-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Hava nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 98,0 | 102,0 | 95,1 |
| Dəniz nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Kompleks istirahətin təşkili üzrə xidmətlər | 100,0 | 100,6 | 101,0 | 102,0 |
| Ödənişli ali təhsil haqqı | 100,0 | 102,0 | 102,0 | 100,4 |
| Restoran və kafelər tərəfindən yeməklə təmin edilmə xidmətləri | 100,0 | 101,0 | 101,0 | 101,5 |
| Mehmanxana xidməti | 100,0 | 101,2 | 102,3 | 102,6 |
| Bərbərxana və kosmetoloji xidmətlər | 100,0 | 101,0 | 101,4 | 101,7 |
| Nəqliyyat vasitələrinin sığortası haqqı | 100,0 | 100,0 | 100,0 | 100,0 |

Cədvəl 45

**Ölkənin iqtisadi rayonları üzrə 2020-ci ilin iyun ayında istehlak qiymətləri indeksləri** (əvvəlki aya nisbətən, faizlə)

| | Cəmi məhsullar və xidmətlər | Ərzaq məhsulları, içkilər və tütün məmulatları | Qeyri-ərzaq məhsulları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 99,6 | 98,5 | 99,8 | 100,8 |
| Abşeron | 99,8 | 98,7 | 100,0 | 101,2 |
| Gəncə-Qazax | 99,7 | 98,7 | 100,0 | 100,7 |
| Şəki-Zaqatala | 99,7 | 98,9 | 100,0 | 100,6 |
| Lənkəran | 99,7 | 98,5 | 100,2 | 100,8 |
| Quba-Xaçmaz | 99,7 | 98,7 | 100,1 | 100,7 |
| Aran | 99,9 | 98,7 | 100,2 | 101,0 |
| Yuxarı Qarabağ | 99,5 | 98,3 | 100,1 | 100,8 |
| Dağlıq Şirvan | 99,4 | 98,0 | 100,1 | 100,7 |
| Naxçıvan Muxtar Respublikası | 100,3 | 99,9 | 100,0 | 100,9 |

Qrafik 20

**İqtisadi rayonlar üzrə istehlak qiymətləri indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)



**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri.** 2020-ci ilin iyun ayında sənaye məhsullarının istehsalçı qiymətləri indeksi əvvəlki ayla müqayisədə 133,1 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 141,6 faiz, emal sənayesi üzrə 99,8 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı; tullantıların təmizlənməsi və emalı sahələri üzrə isə 100,0 faiz təşkil etmişdir.

Cədvəl 46

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi** | **133,1** | **73,8** | **69,6** |
| Mədənçıxarma sənayesi | 141,6 | 63,6 | 61,7 |
| Emal sənayesi | 99,8 | 90,5 | 99,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 100,0 | 100,0 | 100,0 |

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri.** 2020-ci ilin iyun ayında may ayı ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi 98,8 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 96,1 faiz, heyvandarlıq məhsulları üzrə 101,0 faiz təşkil etmişdir.

Ay ərzində meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi, balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymətləri indeksi 100,0 faiz təşkil etmişdir.

Cədvəl 47

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Kənd təsərrüfatı məhsulları** | **98,8** | **109,6** | **108,8** |
| bitkiçilik məhsulları | 96,1 | 111,7 | 111,4 |
| heyvandarlıq məhsulları | 101,0 | 107,5 | 106,3 |
| **Meşə təsərrüfatı məhsulları** | **100,0** | **102,3** | **102,3** |
| **Balıq və sair balıqçılıq məhsulları** | **100,0** | **103,4** | **102,4** |

**Nəqliyyat, poçt və rabitə xidmətlərinin qiymət indeksləri.** 2020-ci ilin iyun ayında əvvəlki ayla müqayisədə nəqliyyat xidmətlərinin qiymət indeksi 99,9 faiz, nəqliyyatda yükdaşıma xidmətlərinin qiymət indeksi 99,8 faiz, nəqliyyatda sərnişindaşıma xidmətlərinin qiymət indeksi isə 100,0 faiz təşkil etmişdir.

Ay ərzində rabitə, poçt və kuryer xidmətlərinin qiymət indeksləri əvvəlki aya nisbətən 100,0 faiz təşkil etmişdir.

Cədvəl 48

**Nəqliyyat, poçt və rabitə qiymətləri indeksi**

| | 2020-ci ilin iyun ayı 2020-ci ilin may ayına nisbətən, faizlə | 2020-ci ilin iyun ayı 2019-cu ilin iyun ayına nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat xidmətlərinin qiymət indeksi** | **99,9** | **100,4** | **101,5** |
| Yükdaşıma nəqliyyatı xidməti | 99,8 | 100,7 | 101,5 |
| Sərnişindaşıma nəqliyyatı xidməti | 100,0 | 98,6 | 101,2 |
| **Poçt və kuryer xidmətlərinin qiymət indeksi** | **100,0** | **99,9** | **99,9** |
| **Rabitə xidmətlərinin qiymət indeksi** | **100,0** | **100,0** | **100,0** |

**İdxal olunan məhsulların qiymət indeksləri.** 2020-ci ilin may ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 101,2 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 123,3 faiz, 2020-ci ilin yanvar-may aylarında 2019-cu ilin yanvar-may aylarına nisbətən isə 124,6 faiz təşkil etmişdir.

**İxrac olunan məhsulların qiymət indeksləri.** 2020-ci ilin may ayında ixrac olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 137,9 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 54,2 faiz, 2020-ci ilin yanvar-may aylarında 2019-cu ilin yanvar-may aylarına nisbətən isə 70,5 faiz təşkil etmişdir.

**Mənzil bazarında qiymət indeksləri.** 2020-ci ilin II rübündə həm ilkin, həmdə təkrar mənzil bazarında qiymət indeksi əvvəlki rüb ilə müqayisədə 100,0 faiz təşkil etmişdir.

Cədvəl 49

**Mənzil bazarında qiymət indeksləri**

| | 2020-ci ilin II rübü 2020-ci ilin I rübünə nisbətən, faizlə | 2020-ci ilin II rübü 2019-cu ilin II rübünə nisbətən, faizlə | 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Mənzil bazarında qiymət indeksi** | **100,0** | **99,9** | **100,0** |
| İlkin mənzil bazarında qiymət indeksi | 100,0 | 99,2 | 99,2 |
| Təkrar mənzil bazarında qiymət indeksi | 100,0 | 99,9 | 100,0 |

# Kredit qoyuluşları

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə 2020-ci il iyun ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 14765,7 milyon manat təşkil etmişdir. Ümumi kredit portfelinin 12187,5 milyon manatı və ya 82,5 faizi uzunmüddətli kreditlərin payına düşmüşdür.

Kreditlərin 97,3 faizi banklar, 2,7 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 1084,8 milyon manat olmuş və ümumi kredit portfelinin 7,4 faizini təşkil etmişdir.

Cədvəl 50

**İqtisadiyyata kredit qoyuluşu**

| | 2020-ci il iyunun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 14765,7 | 111,9 |
| o cümlədən: qısamüddətli | 2578,2 | 97,9 |
| uzunmüddətli | 12187,5 | 115,4 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 1084,8 | 72,6 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 7,4 | x |

Qrafik 21


İqtisadiyyata kredit qoyuluşu, milyard manat
22.0
20.0
18.0
16.0
14.0
12.0
10.0
8.0
6.0
4.0
2.0
0.0
13,2
13,5
13,7
13,9
14,2
14,4
15,1
15,3
15,5
15,7
15,6
15,1
14,8
01.06.2019
01.07.2019
01.08.2019
01.09.2019
01.10.2019
01.11.2019
01.12.2019
01.01.2020
01.02.2020
01.03.2020
01.04.2020
01.05.2020
01.06.2020
Uzunmüddətli
Qısamüddətli

## Məşğulluq və işsizlik

2020-ci il iyulun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5220,6 min nəfər olmuş, onlardan 4883,1 min nəfərini məşğul əhali təşkil etmişdir.

Cari il iyunun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1681,7 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 930,0 min nəfər, qeyri-dövlət sektorunda isə 751,7 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 33,9 min nəfər, qeyri neft-qaz sektorunda isə 1647,8 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24,0 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,8 faizi tikintidə, 7,3 faizi emal sənayesində, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,0 faizi mədənçıxarma sənayesində, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 19,8 faizi təhsil, 17,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,0 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,4 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi istirahət, əyləncə və incəsənət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 1,7 faizi informasiya və rabitə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1,0 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışmışlar.

Cədvəl 51

## 2020-ci il iyun ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla işləyən işçilərin sayı

(min nəfər)

| **İqtisadi fəaliyyət növləri** | **Cəmi** | **o cümlədən** | |
|---|---|---|---|
| | | **dövlət** | **qeyri-dövlət** |
| **Ölkə üzrə – cəmi** | **1 681,7** | **930,0** | **751,7** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 56,2 | 25,8 | 30,4 |
| Mədənçıxarma sənayesi | 34,1 | 13,1 | 21,0 |
| Emal sənayesi | 123,3 | 20,1 | 103,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 29,3 | 28,5 | 0,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 29,1 | 26,4 | 2,7 |
| Tikinti | 131,9 | 31,9 | 100,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 300,7 | 2,5 | 298,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 75,8 | 46,7 | 29,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 26,0 | 1,0 | 25,0 |
| İnformasiya və rabitə | 28,5 | 15,6 | 12,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 29,0 | 6,3 | 22,7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 16,6 | 6,8 | 9,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 57,4 | 34,0 | 23,4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 90,3 | 72,7 | 17,6 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 112,8 | 107,1 | 5,7 |
| Təhsil | 332,7 | 322,4 | 10,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 134,3 | 116,5 | 17,8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 54,8 | 50,6 | 4,2 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 18,9 | 2,0 | 16,9 |

2020-ci ilin yanvar-may aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 131,1 saat təşkil etmişdir.

Cədvəl 52

**2020-ci ilin yanvar-may aylarında iqtisadi fəaliyyət növləri üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı**

| İqtisadi fəaliyyət növləri | İş saatlarının miqdarı |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 142,4 |
| Mədənçıxarma sənayesi | 142,9 |
| Emal sənayesi | 139,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 146,3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 148,8 |
| Tikinti | 141,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 143,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 141,6 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 129,5 |
| İnformasiya və rabitə | 146,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 142,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 138,7 |
| Peşə, elmi və texniki fəaliyyət | 137,2 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 136,3 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 143,6 |
| Təhsil | 93,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 144,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 127,1 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 131,0 |

# Dövlət büdcəsi

2020-ci ilin yanvar-may aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,9 faiz artaraq 10580,25 milyon manata, xərcləri isə 0,4 faiz azalaraq 9392,23 milyon manata çatmışdır. Büdcənin icrasında yaranmış 1188,02 milyon manatlıq profisit ümumi daxili məhsulun 4,3 faizinə bərabər olmuşdur.

Cədvəl 53

## Dövlət büdcəsinin gəlirləri

| | 2020-ci ilin yanvar-may ayları, milyon manat * | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Gəlirlər – cəmi** | **10580,25** | **100,0** | **38,50** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 461,87 | 4,36 | 1,68 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1400,70 | 13,24 | 5,10 |
| Torpaq vergisi | 6,28 | 0,06 | 0,02 |
| Əmlak vergisi | 84,71 | 0,80 | 0,30 |
| Əlavə dəyər vergisi | 2123,04 | 20,07 | 7,73 |
| Sadələşdirilmiş vergi | 146,44 | 1,38 | 0,53 |
| Aksiz | 370,50 | 3,50 | 1,35 |
| Yol vergisi | 45,43 | 0,43 | 0,17 |
| Mədən vergisi | 55,74 | 0,53 | 0,20 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 476,02 | 4,50 | 1,73 |
| Digər daxilolmalar | 5409,52 | 51,13 | 19,69 |

* - 2020-ci ilin yanvar-may ayları üzrə dərc edilmiş operativ rəqəmlərə Maliyyə Nazirliyinin məlumatları əsasında müvafiq dəyişikliklər edilmişdir.

Daxilolmaların 20,07 faizi əlavə dəyər vergisi, 13,24 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 4,50 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,36 faizi fiziki şəxslərin gəlir vergisi, 3,50 faizi aksizlər, 1,38 faizi sadələşdirilmiş vergi, 1,82 faizi vergilərin digər növləri, 51,13 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Cədvəl 54

**Dövlət büdcəsinin xərcləri**

| | 2020-ci ilin yanvar-may ayları, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Xərclər – cəmi** | **9392,231** | **100,0** | **34,18** |
| o cümlədən:<br>Ümumi dövlət xidmətləri | 1387,729 | 14,775 | 5,05 |
| Müdafiə və milli təhlükəsizlik | 1002,957 | 10,679 | 3,65 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq | 670,608 | 7,140 | 2,44 |
| Təhsil | 1113,676 | 11,857 | 4,05 |
| Səhiyyə | 453,069 | 4,824 | 1,65 |
| Sosial müdafiə və sosial təminat | 1434,461 | 15,273 | 5,22 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 129,606 | 1,380 | 0,47 |
| Mənzil və kommunal təsərrüfatı | 89,332 | 0,951 | 0,33 |
| Kənd təsərrüfatı | 427,525 | 4,552 | 1,56 |
| Ətraf mühitin mühafizəsi | 63,281 | 0,674 | 0,23 |
| İqtisadi fəaliyyət | 1733,080 | 18,452 | 6,30 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 886,907 | 9,443 | 3,23 |
| **Profisit/kəsir(-)** | **1188,019** | **-** | **4,32** |

Büdcə vəsaitlərinin 18,45 faizi iqtisadi fəaliyyətin, 16,68 faizi təhsil və səhiyyənin, 15,27 faizi sosial müdafiə və sosial təminatın, 14,78 faizi ümumi dövlət xidmətlərinin, 10,68 faizi müdafiə və milli təhlükəsizliyin, 24,14 faizi isə digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Qrafik 22

**2020-ci ilin yanvar-may aylarında büdcə gəlirlərinin strukturu,** faizlə



Qrafik 23

**2020-ci ilin yanvar-may aylarında büdcə xərclərinin strukturu,** faizlə




Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən 2020-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri 12022,7 milyon manat, xərcləri 11730,8 milyon manat təşkil etmiş, büdcənin icrasında 291,9 milyon manatlıq və ya ümumi daxili məhsulun 0,9 faizi qədər profisit yaranmışdır.

## Xarici ticarət

2020-ci ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 166 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 98 ölkəyə məhsul ixrac olunmuş, 155 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-ci ilin yanvar-may aylarında xarici ticarət dövriyyəsi 9852,5 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 5687,4 milyon dollar, idxalın dəyəri 4165,1 milyon dollar təşkil etmiş, nəticədə 1522,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

2019-cu ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,1 faiz, real ifadədə 19,0 faiz, o cümlədən idxal 42,7 faiz, ixrac isə 2,2 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən xarici ticarət dövriyyəsinin 86,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Ukrayna, ABŞ, Hindistan, Almaniya, İsrail, Yunanıstan, Gürcüstan, Xorvatiya, Çexiya, Tunis, Vyetnam, Portuqaliya, İran, İspaniya, Fransa ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,5 faizi Rusiyanın, 14,7 faizi Türkiyənin, 13,0 faizi Çinin, 8,6 faizi ABŞ-ın, 5,3 faizi Almaniyanın, 4,3 faizi Ukraynanın, 4,1 faizi İtaliyanın, 2,8 faizi İranın, 2,6 faizi Birləşmiş Krallığın, 1,9 faizi Yaponiyanın, 1,7 faizi Koreyanın, 1,6 faizi Fransanın, 1,4 faizi Hindistanın, hər biri 1,2 faiz olmaqla Türkmənistan və Belarusun, 17,1 faizi isə digər ölkələrin payına düşmüşdür.

Qrafik 24

**2020-ci ilin yanvar-may aylarında idxalda daha çox paya malik olan ölkələr üzrə idxalın dəyəri**

(milyon ABŞ dolları ilə)




İdxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, nəqliyyat vasitələrinin, bitki mənşəli məhsulların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil etmişdir.

İdxalın 65,6 faizini avtomobil, 19,8 faizini dəmir yolu, 10,1 faizini hava, 4,4 faizini dəniz nəqliyyatı ilə gətirilmiş, 0,1 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil etmişdir.

2019-cu ilin yanvar-may ayları ilə müqayisədə 2020-ci ilin yanvar-may aylarında mühüm məhsul növlərindən təzə meyvə idxalı 15,9 faiz, bitki yağları – 23,8 faiz, kərə yağı, digər süd yağları və pastaları – 32,5 faiz, çay – 5,2 faiz, mal əti – 35,2 faiz, quş əti və onun əlavə məhsulları – 4,5 faiz, təzə tərəvəz – 25,2 faiz, minik avtomobilləri – 30,0 faiz, dərman vasitələri – 1,7 dəfə, polad prokatı – 29,4 faiz, qara metallardan çubuqlar – 48,3

faiz, mineral gübrələr – 2,1 faiz, hesablama maşınları, blok və qurğuları – 26,5 faiz, qara metallardan künclüklər – 2,3 faiz, avtobuslar – 1,4 faiz, məişət soyuducuları – 39,1 faiz, sement və sement klinkerləri – 1,5 faiz artmış, buğda idxalı isə 38,0 faiz, xam şəkər və şəkər – 6,5 faiz, kartof – 0,6 faiz, siqaretlər – 79,2 faiz, qara metallardan borular – 7,7 faiz, rezin şinlər – 17,5 faiz, mebellər – 21,2 faiz, yük avtomobilləri – 12,6 faiz, polietilen – 14,3 faiz, məişət kondisionerləri – 35,1 faiz paltaryuyan maşınlar – 7,3 faiz azalmışdır.

2020-ci ilin yanvar-may aylarında ölkəyə 18425 ədəd minik avtomobili, 1114 ədəd yük avtomobili, 71 ədəd avtobus idxal olunmuşdur.

İxracın 34,8 faizini İtaliyaya, 17,9 faizini Türkiyəyə, 4,5 faizini İsrailə, 4,1 faizini Hindistana, 4,0 faizini Rusiyaya, 3,5 faizini Yunanıstana, hər biri 3,0 faiz olmaqla Xorvatiya və Ukraynaya, 2,8 faizini Gürcüstana, 2,7 faizini Çinə, 2,3 faizini Çexiyaya, 2,0 faizini Tunisə, 1,9 faizini Portuqaliyaya, hər biri 1,6 faiz olmaqla Almaniya və Vyetnama, 1,4 faizini İspaniyaya, 1,2 faizini Avstriyaya, 7,7 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qrafik 25

**2020-ci ilin yanvar-may aylarında ixracda daha çox paya malik olan ölkələr üzrə ixracın dəyəri**

(milyon ABŞ dolları ilə)



2020-ci ilin yanvar-may aylarında ixracın 88,4 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş, 7,0 faizini avtomobil, 2,7 faizini dəmir yolu, 1,3 faizini hava, 0,6 faizini dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

İxracın strukturunda xam neft, təbii qaz, neft-qaz məhsulları, meyvə və tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, kimya sənayesi məhsulları, alüminium və ondan hazırlanan məmulatlar, qara metallar və onlardan hazırlanan məmulatlar, bitki yağları, şəkər, alkoqollu və alkoqolsuz içkilərin payı üstünlük təşkil etmişdir.

2020-ci ilin yanvar-may aylarında 2019-cu ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən kartof ixracı 7,7 faiz, meyvə və tərəvəz şirələri – 5,1 faiz, bitki yağları – 1,9 dəfə, çay – 7,5 faiz, meyvə və tərəvəz konservləri – 1,1 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 1,7 dəfə, polietilen – 42,2 faiz, qara metallardan borular – 1,7 dəfə artmış, təzə tərəvəz ixracı isə 1,8 faiz, təzə meyvə – 33,3 faiz, şəkər – 12,7 faiz, tütün – 25,9 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 49,3 faiz, pambıq lifi – 26,6 faiz, emal olunmamış alüminium – 15,9 faiz, pambıq ipliyi – 18,8 faiz, bentonit gili – 5,2 faiz azalmışdır.

2020-ci ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı 2019-cu ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 8,9 faiz, real ifadədə isə 14,5 faiz azalaraq 721,5 milyon dollara bərabər olmuşdur. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (37,6 faiz), Türkiyəyə (20,0 faiz), İsveçrəyə (9,9 faiz), Gürcüstana (9,8 faiz), Çinə (3,3 faiz), İtaliyaya (2,5 faiz), Ukraynaya (2,4 faiz), Qazaxıstana (1,7 faiz), İrana (1,2 faiz), ABŞ-a (1,1 faiz) , Belarusa (1,0 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Qrafik 26

**2020-ci ilin yanvar-may aylarında xarici ticarət dövriyyəsində daha çox paya malik olan ölkələr üzrə ticarət dövriyyəsi**

(milyon ABŞ dolları ilə)




Qrafik 27

**2020-ci ilin yanvar-may aylarında MDB üzvü dövlətləri ilə ticarət dövriyyəsi**

(milyon ABŞ dolları ilə)



## Təsərrüfat subyektlərinin xarakteristikası

2020-ci ilin yanvar-iyun ayları ərzində statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 3,0 faiz artaraq 2020-ci il iyulun 1-i vəziyyətinə 150555 olmuşdur.

Artım iqtisadiyyatın "Turistlərin yerləşdirilməsi və ictimai iaşə", "Nəqliyyat və anbar təsərrüfatı", "İnzibati və yardımçı xidmətlərin göstərilməsi", "Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi", "İnformasiya və rabitə", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar", "Su təchizatı; tullantıların təmizlənməsi və emalı" və "Peşə, elmi və texniki fəaliyyət" sahələrində nəzərəçarpacaq dərəcədə olmuşdur.

Cədvəl 55

**İqtisadi fəaliyyət növləri üzrə statistik vahidlərin sayı**

(fərdi sahibkarlar istisna olmaqla)

| Fəaliyyət növünün | | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | | Ümumi saya görə, faizlə | 01.01.2020-ci il vəziyyətinə olan statistik vahidlərin sayına görə, faizlə |
|---|---|---|---|---|---|
| Hərf işarə-si | Adı | Cəmi* | o cümlədən kommer-siya təşkilatları | | |
| | **CƏMİ** | **150555** | **133543** | **100,0** | **103,0** |
| **A** | o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 11355 | 10599 | 7,5 | 101,5 |
| **B** | Mədənçıxarma sənayesi | 930 | 929 | 0,6 | 101,4 |
| **C** | Emal sənayesi | 8101 | 8090 | 5,4 | 103,6 |
| **D** | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 330 | 299 | 0,2 | 101,5 |
| **E** | Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 560 | 472 | 0,4 | 103,7 |
| **F** | Tikinti | 14081 | 14021 | 9,4 | 102,6 |
| **G** | Ticarət; nəqliyyat vasitələrinin təmiri | 42226 | 42207 | 28,0 | 103,6 |
| **H** | Nəqliyyat və anbar təsərrüfatı | 3227 | 3204 | 2,1 | 106,1 |
| **İ** | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 3268 | 3254 | 2,2 | 110,3 |

...ardı

| Fəaliyyət növünün | | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | | Ümumi saya görə, faizlə | 01.01.2020-ci il vəziyyətinə olan statistik vahidlərin sayına görə, faizlə |
|---|---|---|---|---|---|
| Hərf işarə-si | Adı | Cəmi* | o cümlədən kommer-siya təşkilatları | | |
| **J** | İnformasiya və rabitə | 3875 | 3809 | 2,6 | 104,1 |
| **K** | Maliyyə və sığorta fəaliyyəti | 1818 | 1759 | 1,2 | 100,4 |
| **L** | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 2095 | 1933 | 1,4 | 104,0 |
| **M** | Peşə, elmi və texniki fəaliyyət | 10132 | 9447 | 6,7 | 103,7 |
| **N** | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 7516 | 7377 | 5,0 | 106,0 |
| **O** | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4945 | 0 | 3,3 | 100,4 |
| **P** | Təhsil | 4566 | 2407 | 3,0 | 102,5 |
| **Q** | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2214 | 1706 | 1,5 | 105,4 |
| **R** | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 2132 | 1668 | 1,4 | 102,3 |
| **S** | Digər sahələrdə xidmətlərin göstərilməsi | 27088 | 20362 | 18,0 | 100,8 |
| **U** | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 96 | 0 | 0,1 | 98,0 |

*) Bu və sonrakı cədvəllərdə statistik vahidlərin sayına dair son tarixə olan məlumatlarda əvvəlki dövrlərdə yaranmış və ya ləğv edilmiş statistik vahidlərin sayı ilə bağlı inzibati mənbələrdən əldə edilmiş məlumatlar əsasında aparılmış dəqiqləşmələr də öz əksini tapmışdır.

“Ticarət; nəqliyyat vasitələrinin təmiri”, “Digər sahələrdə xidmətlərin göstərilməsi”, “Tikinti”, “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” və “Peşə, elmi və texniki fəaliyyət” sahələrindəki statistik vahidlərin xüsusi çəkisi daha yüksək olmuşdur.

Qrafik 28

**Fəaliyyət növləri üzrə statistik vahidlərin sayının strukturu, yekuna nisbətən**




Cədvəl 56

## Qeydiyyatda olan statistik vahidlərin sayının iqtisadi fəaliyyət üzrə mülkiyyət növlərinə görə bölgüsü

(2020-ci il iyulun 1-nə)

| Fəaliyyət növləri | Mülkiyyət növlərinə görə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Dövlət müəssisələri | | Bələdiyyə* müəssisələri | | Xüsusi müəssisələr | | ondan | | | |
| | | | | | | | Xarici müəssisələr | | Birgə müəssisələr | |
| | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % |
| **Cəmi** | **10695** | **7,1** | **1725** | **1,1** | **138135** | **91,8** | **12010** | **8,0** | **2963** | **2,0** |
| o cümlədən: **A** | 550 | 4,8 | 62 | 0,6 | 10743 | 94,6 | 168 | 1,5 | 112 | 1,0 |
| **B** | 38 | 4,1 | 1 | 0,1 | 891 | 95,8 | 222 | 23,9 | 31 | 3,3 |
| **C** | 231 | 2,9 | 9 | 0,1 | 7861 | 97,0 | 617 | 7,6 | 402 | 5,0 |
| **D** | 264 | 80,0 | 0 | 0,0 | 66 | 20,0 | 11 | 3,3 | 6 | 1,8 |
| **E** | 219 | 39,1 | 3 | 0,5 | 338 | 60,4 | 25 | 4,5 | 22 | 3,9 |
| **F** | 511 | 3,6 | 18 | 0,1 | 13552 | 96,3 | 1192 | 8,5 | 336 | 2,4 |

* Bələdiyyələr də daxil olmaqla

…ardı

| Fəaliy-yət növləri | Mülkiyyət növlərinə görə | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Dövlət müəssisələri | | Bələdiyyə* müəssisələri | | Xüsusi müəssisələr | | ondan | | | |
| | | | | | | | Xarici müəssisələr | | Birgə müəssisələr | |
| | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % |
| **G** | 660 | 1,6 | 1 | 0,0 | 41565 | 98,4 | 3270 | 7,7 | 818 | 1,9 |
| **H** | 249 | 7,7 | 3 | 0,1 | 2975 | 92,2 | 301 | 9,3 | 84 | 2,6 |
| **İ** | 41 | 1,3 | 0 | 0,0 | 3227 | 98,7 | 1086 | 33,2 | 127 | 3,9 |
| **J** | 222 | 5,7 | 0 | 0,0 | 3653 | 94,3 | 260 | 6,7 | 97 | 2,5 |
| **K** | 155 | 8,5 | 1 | 0,1 | 1662 | 91,4 | 115 | 6,3 | 83 | 4,6 |
| **L** | 109 | 5,2 | 0 | 0,0 | 1986 | 94,8 | 117 | 5,6 | 44 | 2,1 |
| **M** | 649 | 6,4 | 3 | 0,0 | 9480 | 93,6 | 1475 | 14,6 | 258 | 2,5 |
| **N** | 253 | 3,4 | 3 | 0,0 | 7260 | 96,6 | 1262 | 16,8 | 161 | 2,1 |
| **O** | 3337 | 67,5 | 1607 | 32,5 | 1 | 0,0 | 1 | 0,0 | 0 | 0,0 |
| **P** | 2200 | 48,2 | 0 | 0,0 | 2366 | 51,8 | 161 | 3,5 | 45 | 1,0 |
| **Q** | 468 | 21,1 | 0 | 0,0 | 1746 | 78,9 | 129 | 5,8 | 35 | 1,6 |
| **R** | 416 | 19,5 | 4 | 0,2 | 1712 | 80,3 | 71 | 3,3 | 34 | 1,6 |
| **S** | 122 | 0,5 | 10 | 0,0 | 26956 | 99,5 | 1434 | 5,3 | 268 | 1,0 |
| **U** | 1 | 1,0 | 0 | 0,0 | 95 | 99,0 | 93 | 96,9 | 0 | 0,0 |

Xüsusi mülkiyyətə aid olan statistik vahidlərin əsas hissəsi “Ticarət; nəqliyyat vasitələrinin təmiri” (30,1%), “Digər sahələrdə xidmətlərin göstərilməsi” (19,5%), “Tikinti” (9,8%), “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” (7,8%), “Peşə, elmi və texniki fəaliyyət” (6,9%) və “Emal sənayesi” (5,7%) sahələrinin payına düşür.

* Bələdiyyələr də daxil olmaqla

Qrafik 29

**Statistik vahidlərin sayının mülkiyyət növünə görə strukturu, yekuna nisbətən**




Qrafik 30

**Mülkiyyət növlərinə görə statistik vahidlərin sayının dəyişməsi, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə**



Qrafik 31

**Xarici investisiyalı və birgə müəssisələrin sayının ölkələr üzrə strukturu, yekuna nisbətən**




Reyestrdə qeydiyyatdan keçmiş statistik vahidlərdən tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (22,1%), İran (10,7%), Rusiya (4,8%), Böyük Britaniya (4,5%), ABŞ (1,7%) və Almaniya (1,2%) kimi ölkələrin sahibkarları tərəfindən yaradılmışdır.

Cədvəl 57

## Statistik vahidlərin demoqrafiyası

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | 2020-ci ilin yanvar-iyun ayları ərzində yeni yaradılmış statistik vahidlərin sayı | | 2020-ci ilin yanvar-iyun ayları ərzində ləğv edilmiş statistik vahidlərin sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | faizlə | cəmi | faizlə |
| **CƏMİ** | **150555** | **4563** | **3,0** | **241** | **0,2** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 11355 | 168 | 1,5 | 5 | 0,0 |
| Mədənçıxarma sənayesi | 930 | 17 | 1,8 | 4 | 0,4 |
| Emal sənayesi | 8101 | 296 | 3,7 | 11 | 0,1 |

…ardı

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | 2020-ci ilin yanvar-iyun ayları ərzində yeni yaradılmış statistik vahidlərin sayı | | 2020-ci ilin yanvar-iyun ayları ərzində ləğv edilmiş statistik vahidlərin sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | faizlə | cəmi | faizlə |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 330 | 4 | 1,2 | 0 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 560 | 19 | 3,4 | 0 | 0,0 |
| Tikinti | 14081 | 344 | 2,4 | 16 | 0,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 42226 | 1477 | 3,5 | 44 | 0,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 3227 | 175 | 5,4 | 8 | 0,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 3268 | 306 | 9,4 | 4 | 0,1 |
| İnformasiya və rabitə | 3875 | 161 | 4,2 | 11 | 0,3 |
| Maliyyə və sığorta fəaliyyəti | 1818 | 53 | 2,9 | 52 | 2,9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 2095 | 48 | 2,3 | 3 | 0,1 |
| Peşə, elmi və texniki fəaliyyət | 10132 | 367 | 3,6 | 28 | 0,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 7516 | 427 | 5,7 | 7 | 0,1 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4945 | 25 | 0,5 | 3 | 0,1 |
| Təhsil | 4566 | 121 | 2,7 | 9 | 0,2 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2214 | 116 | 5,2 | 1 | 0,0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 2132 | 57 | 2,7 | 9 | 0,4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 27088 | 382 | 1,4 | 25 | 0,1 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 96 | 0 | 0,0 | 1 | 1,0 |

2020-ci ilin yanvar-iyun ayları ərzində ləğv edilmiş statistik vahidlərin 21,6 faizi "Maliyyə və sığorta fəaliyyəti", 18,3 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 11,6 faizi "Peşə, elmi və texniki fəaliyyət", 10,4 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 6,6 faizi "Tikinti" sahələrində, qalanları isə digər bölmələrin payına düşür.

Bu dövrdə yeni yaradılmış statistik vahidlərin 32,4 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 9,4 faizi "İnzibati və yardımçı xidmətlərin göstərilməsi", 8,4 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 8,0 faizi "Peşə, elmi və texniki fəaliyyət", 7,5 faizi "Tikinti", 6,7 faizi "Turistlərin yerləşdirilməsi və ictimai iaşə" sahələrinin, qalanları isə digər bölmələrin payına düşür.

Cədvəl 58

**Yeni yaradılmış və ləğv edilmiş statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayının mülkiyyət növlərinə görə strukturu**

| Mülkiyyət növləri | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | 2020-ci ilin yanvar-iyun ayları ərzində yeni yaradılmış statistik vahidlərin sayı | | 2020-ci ilin yanvar-iyun ayları ərzində ləğv edilmiş statistik vahidlərin sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | faizlə | cəmi | faizlə |
| **CƏMİ** | **150555** | **4563** | **3,0** | **241** | **0,2** |
| o cümlədən: Dövlət mülkiyyətli müəssisələr | 10695 | 122 | 1,1 | 36 | 0,3 |
| Bələdiyyə mülkiyyətli müəssisələr* | 1725 | 1 | 0,1 | 0 | 0,0 |
| Xüsusi mülkiyyətli müəssisələr | 138135 | 4440 | 3,2 | 205 | 0,1 |
| o cümlədən: xarici müəssisələr (100% xarici investisiyalı) | 12010 | 878 | 7,3 | 31 | 0,3 |
| birgə müəssisələr | 2963 | 88 | 3,0 | 29 | 1,0 |

* Bələdiyyələr də daxil edilməklə

2020-ci ilin yanvar-iyun ayları ərzində yeni yaradılmış statistik vahidlərin 97,3 faizi xüsusi mülkiyyətli (o cümlədən 19,2 faizi tam xarici investisiyalı, 1,9 faizi birgə mülkiyyətli), 2,7 faizi isə dövlət mülkiyyətli müəssisələrin payına düşür.

Cədvəl 59

**İqtisadi rayonlar üzrə statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) Dövlət reyestrinin tərkibinin dəyişməsi**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə statistik vahidlərin sayı | 2020-ci ilin yanvar-iyun ayları ərzində yeni yaradılmış statistik vahidlərin sayı | | 2020-ci ilin yanvar-iyun ayları ərzində ləğv edilmiş statistik vahidlərin sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | faizlə | cəmi | faizlə |
| **CƏMİ** | **150555** | **4563** | **3,0** | **241** | **0,2** |
| Bakı | 89545 | 3763 | 4,2 | 167 | 0,2 |
| Abşeron iqtisadi rayonu | 10154 | 242 | 2,4 | 15 | 0,1 |
| Gəncə-Qazax iqtisadi rayonu | 8625 | 125 | 1,4 | 10 | 0,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 5320 | 60 | 1,1 | 3 | 0,1 |
| Lənkəran iqtisadi rayonu | 7224 | 69 | 1,0 | 4 | 0,1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 4598 | 50 | 1,1 | 5 | 0,1 |
| Aran iqtisadi rayonu | 17728 | 177 | 1,0 | 21 | 0,1 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 2411 | 18 | 0,7 | 1 | 0,0 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 561 | 2 | 0,4 | 1 | 0,2 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 2376 | 27 | 1,1 | 1 | 0,0 |
| Naxçıvan Muxtar Respublikası | 2013 | 30 | 1,5 | 13 | 0,6 |

Qeydiyyatda olan statistik vahidlərin 59,5 faizi Bakıda yerləşmişdir. Hesabat dövründə yeni yaradılmış statistik vahidlərin 82,5 faizi Bakıda, 5,3 faizi Abşeron, 3,9 faizi Aran, 2,7 faizi Gəncə-Qazax, 1,5 faizi Lənkəran, 1,3 faizi Şəki-Zaqatala və qalanları isə digər iqtisadi rayonlarda qeydiyyata alınmışlar. Statistik vahidlərin yaradılması prosesi Bakı şəhərində (4,2%), Abşeron iqtisadi rayonunda (2,4%), Naxçıvan Muxtar

Respublikasında (1,5%), Gəncə-Qazax iqtisadi rayonunda (1,4%), Şəki-Zaqatala, Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonlarında (hər birində 1,1%), Lənkəran və Aran iqtisadi rayonlarında (hər birində 1,0%) daha fəal olmuşdur.

Bu dövrdə Bakı şəhəri üzrə 167, Aran iqtisadi rayonu üzrə 21, Abşeron iqtisadi rayonu üzrə 15, Naxçıvan Muxtar Respublikası üzrə 13, Gəncə-Qazax iqtisadi rayonu üzrə 10, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 5, Lənkəran iqtisadi rayonu üzrə 4, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 3 və Yuxarı Qarabağ, Kəlbəcər-Laçın və Dağlıq Şirvan iqtisadi rayonlarının hər biri üzrə 1 statistik vahid ləğv edilmişdir.

2020-ci il iyulun 1-i vəziyyətinə ölkədə mövcud olan mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin (fərdi sahibkarlar istisna olmaqla) sayı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"na uyğun olaraq işçilərin orta siyahı sayı və illik gəliri meyarı əsasında müəyyən edilmişdir.

Cədvəl 60

**Mikro müəssisələrin iqtisadi fəaliyyət növləri üzrə sayı**

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə mikro müəssisələrin sayı | Mikro müəssisələrin ümumi sayına görə, faizlə | Kommersiya təşkilatlarının ümumi sayında mikro müəssisələrin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **122741** | **100,0** | **91,9** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 10102 | 8,2 | 95,3 |
| Mədənçıxarma sənayesi | 754 | 0,6 | 81,2 |
| Emal sənayesi | 6956 | 5,7 | 86,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 112 | 0,1 | 37,5 |

…ardı

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə mikro müəssisələrin sayı | Mikro müəssisələrin ümumi sayına görə, faizlə | Kommersiya təşkilatlarının ümumi sayında mikro müəssisələrin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 300 | 0,2 | 63,6 |
| Tikinti | 12520 | 10,2 | 89,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 39238 | 32,0 | 93,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2673 | 2,2 | 83,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 2862 | 2,3 | 88,0 |
| İnformasiya və rabitə | 3438 | 2,8 | 90,3 |
| Maliyyə və sığorta fəaliyyəti | 1315 | 1,1 | 74,7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1666 | 1,4 | 86,2 |
| Peşə, elmi və texniki fəaliyyət | 8719 | 7,1 | 92,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 7008 | 5,7 | 95,0 |
| Təhsil | 2181 | 1,8 | 90,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1325 | 1,1 | 77,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1502 | 1,2 | 90,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 20070 | 16,3 | 98,6 |

Göründüyü kimi, 2020-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 91,9 faizini mikro müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (32,0%), digər sahələrdə xidmətlərin göstərilməsi (16,3%), tikinti (10,2%) və kənd təsərrüfatı (8,2%) sahələrində yaradılmışdır.

Cədvəl 61

**Kiçik müəssisələrin iqtisadi fəaliyyət növləri üzrə sayı**

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə kiçik müəssisələrin sayı | Kiçik müəssisələrin ümumi sayına görə, faizlə | Kommersiya təşkilatlarının ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **7226** | **100,0** | **5,4** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 335 | 4,6 | 3,2 |
| Mədənçıxarma sənayesi | 95 | 1,3 | 10,2 |
| Emal sənayesi | 682 | 9,4 | 8,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 34 | 0,5 | 11,4 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 63 | 0,9 | 13,3 |
| Tikinti | 927 | 12,8 | 6,6 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 2105 | 29,1 | 5,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 322 | 4,5 | 10,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 287 | 4,0 | 8,8 |
| İnformasiya və rabitə | 233 | 3,2 | 6,1 |
| Maliyyə və sığorta fəaliyyəti | 360 | 5,0 | 20,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 209 | 2,9 | 10,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 531 | 7,4 | 5,6 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 278 | 3,8 | 3,8 |
| Təhsil | 156 | 2,2 | 6,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 252 | 3,5 | 14,8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 116 | 1,6 | 7,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 241 | 3,3 | 1,2 |

2020-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 5,4 faizini kiçik müəssisələr təşkil

etmiş və onların əsas hissəsi ticarət (29,1%), tikinti (12,8%), emal sənayesi (9,4%) və peşə, elmi və texniki fəaliyyət (7,4%) sahələrində yaradılmışdır.

Cədvəl 62

**Orta müəssisələrin iqtisadi fəaliyyət növləri üzrə sayı**

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə orta müəssisələrin sayı | Orta müəssisələrin ümumi sayına görə, faizlə | Kommersiya təşkilatlarının ümumi sayında orta müəssisələrin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **2903** | **100,0** | **2,2** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 142 | 4,9 | 1,3 |
| Mədənçıxarma sənayesi | 39 | 1,3 | 4,2 |
| Emal sənayesi | 348 | 12,0 | 4,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 126 | 4,3 | 42,1 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 88 | 3,0 | 18,6 |
| Tikinti | 473 | 16,3 | 3,4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 740 | 25,5 | 1,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 164 | 5,7 | 5,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 86 | 3,0 | 2,6 |
| İnformasiya və rabitə | 121 | 4,2 | 3,2 |
| Maliyyə və sığorta fəaliyyəti | 62 | 2,1 | 3,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 48 | 1,7 | 2,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 156 | 5,4 | 1,7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 68 | 2,3 | 0,9 |
| Təhsil | 56 | 1,9 | 2,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 97 | 3,3 | 5,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 45 | 1,6 | 2,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 44 | 1,5 | 0,2 |

2020-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 2,2 faizini orta müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (25,5%), tikinti (16,3%), emal sənayesi (12,0%) və nəqliyyat və anbar təsərrüfatı (5,7%) sahələrində yaradılmışdır.

Cədvəl 63

**İri müəssisələrin iqtisadi fəaliyyət növləri üzrə sayı**

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə iri müəssisələrin sayı | İri müəssisələrin ümumi sayına görə, faizlə | Kommersiya təşkilatlarının ümumi sayında iri müəssisələrin xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **673** | **100,0** | **0,5** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 20 | 3,0 | 0,2 |
| Mədənçıxarma sənayesi | 41 | 6,1 | 4,4 |
| Emal sənayesi | 104 | 15,5 | 1,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27 | 4,0 | 9,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 21 | 3,1 | 4,5 |
| Tikinti | 101 | 15,0 | 0,7 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 124 | 18,4 | 0,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 45 | 6,7 | 1,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 19 | 2,8 | 0,6 |
| İnformasiya və rabitə | 17 | 2,5 | 0,4 |
| Maliyyə və sığorta fəaliyyəti | 22 | 3,3 | 1,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 10 | 1,5 | 0,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 41 | 6,1 | 0,4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 23 | 3,4 | 0,3 |
| Təhsil | 14 | 2,1 | 0,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 32 | 4,8 | 1,9 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 5 | 0,7 | 0,3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 7 | 1,0 | 0,0 |

2020-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 0,5 faizini iri müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (18,4%), emal sənayesi (15,5%), tikinti (15,0%) və nəqliyyat və anbar təsərrüfatı (6,7%) sahələrində yaradılmışdır.

Cədvəl 64

**Mikro müəssisələrin sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə mikro müəssisələrin sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **122741** | **100,0** |
| Bakı | 76738 | 62,5 |
| Abşeron iqtisadi rayonu | 8839 | 7,2 |
| Gəncə-Qazax iqtisadi rayonu | 6061 | 4,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 3856 | 3,1 |
| Lənkəran iqtisadi rayonu | 5802 | 4,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 3534 | 2,9 |
| Aran iqtisadi rayonu | 13432 | 11,0 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1693 | 1,4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 320 | 0,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1629 | 1,3 |
| Naxçıvan Muxtar Respublikası | 837 | 0,7 |

Mikro müəssisələrin 62,5 faizi Bakıda, 11,0 faizi Aran, 7,2 faizi Abşeron, 4,9 faizi Gəncə-Qazax, 4,7 faizi Lənkəran, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

Cədvəl 65

**Kiçik müəssisələrin sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə kiçik müəssisələrin sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **7226** | **100,0** |
| Bakı | 4832 | 66,9 |
| Abşeron iqtisadi rayonu | 423 | 5,8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 425 | 5,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 202 | 2,8 |
| Lənkəran iqtisadi rayonu | 187 | 2,6 |

…ardı

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə kiçik müəssisələrin sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| Quba-Xaçmaz iqtisadi rayonu | 189 | 2,6 |
| Aran iqtisadi rayonu | 640 | 8,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 67 | 0,9 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 15 | 0,2 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 99 | 1,4 |
| Naxçıvan Muxtar Respublikası | 147 | 2,0 |

Kiçik müəssisələrin 66,9 faizi Bakıda, 8,9 faizi Aran, 5,9 faizi Gəncə-Qazax, 5,8 faizi Abşeron, 2,8 faizi Şəki-Zaqatala, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

Cədvəl 66

**Orta müəssisələrin sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə orta müəssisələrin sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **2903** | **100,0** |
| Bakı | 1832 | 63,1 |
| Abşeron iqtisadi rayonu | 167 | 5,8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 168 | 5,8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 117 | 4,0 |
| Lənkəran iqtisadi rayonu | 79 | 2,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 88 | 3,0 |
| Aran iqtisadi rayonu | 274 | 9,5 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 38 | 1,3 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 5 | 0,2 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 44 | 1,5 |
| Naxçıvan Muxtar Respublikası | 91 | 3,1 |

Orta müəssisələrin 63,1 faizi Bakıda, 9,5 faizi Aran, 5,8 faizi (hər birində) Abşeron və Gəncə-Qazax, 4,0 faizi Şəki-Zaqatala, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

Cədvəl 67

**İri müəssisələrin sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə iri müəssisələrin sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **673** | **100,0** |
| Bakı | 519 | 77,1 |
| Abşeron iqtisadi rayonu | 40 | 5,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | 27 | 4,0 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 6 | 0,9 |
| Lənkəran iqtisadi rayonu | 9 | 1,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 10 | 1,5 |
| Aran iqtisadi rayonu | 41 | 6,1 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 3 | 0,5 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 0 | 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 3 | 0,5 |
| Naxçıvan Muxtar Respublikası | 15 | 2,2 |

İri müəssisələrin 77,1 faizi Bakıda, 6,1 faizi Aran, 5,9 faizi Abşeron, 4,0 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

## Fərdi sahibkarlar

2020-ci ilin iyulun 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 983,8 mini keçmişdir.

Cədvəl 68

**Fərdi sahibkarların sayının iqtisadi fəaliyyət növləri üzrə bölgüsü**

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə fərdi sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **983802** | **100,0** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 293609 | 29,8 |
| Mədənçıxarma sənayesi | 972 | 0,1 |
| Emal sənayesi | 20999 | 2,1 |

…ardı

| Fəaliyyət növləri | 01.07.2020-ci il vəziyyətinə fərdi sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 62 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 482 | 0,1 |
| Tikinti | 18446 | 1,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 223914 | 22,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 101890 | 10,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 42918 | 4,4 |
| İnformasiya və rabitə | 9169 | 0,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 4021 | 0,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 14896 | 1,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 22530 | 2,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 20310 | 2,1 |
| Təhsil | 9424 | 1,0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 6192 | 0,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 13933 | 1,4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 114702 | 11,7 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 65333 | 6,6 |

Hesabat dövründə hər səkkiz fərdi sahibkardan altısı “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq”, “Ticarət; nəqliyyat vasitələrinin təmiri”, “Digər sahələrdə xidmətlərin göstərilməsi” və “Nəqliyyat və anbar təsərrüfatı” sahələri üzrə qeydiyyatdan keçmişdir.

Cədvəl 69

**Fərdi sahibkarların sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **983802** | **100,0** |
| Bakı | 285057 | 29,0 |
| Abşeron iqtisadi rayonu | 52737 | 5,4 |
| Gəncə-Qazax iqtisadi rayonu | 135899 | 13,8 |

…ardı

| İqtisadi rayonlar | 01.07.2020-ci il vəziyyətinə sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| Şəki-Zaqatala iqtisadi rayonu | 61020 | 6,2 |
| Lənkəran iqtisadi rayonu | 94915 | 9,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 58467 | 5,9 |
| Aran iqtisadi rayonu | 208860 | 21,2 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 24004 | 2,4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2701 | 0,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 29318 | 3,0 |
| Naxçıvan Muxtar Respublikası | 30824 | 3,1 |

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (29,0%), Aran (21,2%), Gəncə-Qazax (13,8%) və Lənkəran (9,7%) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Cədvəl 70

**İqtisadi fəaliyyət növləri üzrə fərdi sahibkarların cins üzrə bölgüsü**

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | sayı | % | sayı | % |
| **CƏMİ** | **773346** | **100,0** | **210456** | **100,0** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 221787 | 28,7 | 71822 | 34,1 |
| Mədənçıxarma sənayesi | 923 | 0,1 | 49 | 0,0 |
| Emal sənayesi | 17339 | 2,2 | 3660 | 1,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 58 | 0,0 | 4 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 445 | 0,1 | 37 | 0,0 |
| Tikinti | 17698 | 2,3 | 748 | 0,4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 177557 | 23,0 | 46357 | 22,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 100108 | 12,9 | 1782 | 0,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 36412 | 4,7 | 6506 | 3,1 |
| İnformasiya və rabitə | 7440 | 1,0 | 1729 | 0,8 |
| Maliyyə və sığorta fəaliyyəti | 2949 | 0,4 | 1072 | 0,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 10710 | 1,4 | 4186 | 2,0 |

…ardı

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | sayı | % | sayı | % |
| Peşə, elmi və texniki fəaliyyət | 14829 | 2,0 | 7701 | 3,7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 13569 | 1,7 | 6741 | 3,2 |
| Təhsil | 3440 | 0,4 | 5984 | 2,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 4193 | 0,5 | 1999 | 1,0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 12133 | 1,6 | 1800 | 0,9 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 79947 | 10,3 | 34755 | 16,5 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 51809 | 6,7 | 13524 | 6,4 |

Fərdi sahibkarların 78,6 faizini kişilər, 21,4 faizini isə qadınlar təşkil etmişdir.

Qadınlar "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 24,5 faizini, "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət sahəsində 30,3 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,7 faizini təşkil edir.

Cədvəl 71

**İqtisadi rayonlar üzrə fərdi sahibkarların cins üzrə bölgüsü**

| İqtisadi rayonlar | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | sayı | % | sayı | % |
| **CƏMİ** | **773346** | **100,0** | **210456** | **100,0** |
| Bakı | 217937 | 28,2 | 67120 | 31,9 |
| Abşeron iqtisadi rayonu | 41934 | 5,4 | 10803 | 5,1 |
| Gəncə-Qazax iqtisadi rayonu | 101941 | 13,2 | 33958 | 16,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 48510 | 6,3 | 12510 | 5,9 |
| Lənkəran iqtisadi rayonu | 74172 | 9,6 | 20743 | 9,9 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 46481 | 6,0 | 11986 | 5,7 |
| Aran iqtisadi rayonu | 171612 | 22,2 | 37248 | 17,7 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 19873 | 2,5 | 4131 | 2,0 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2155 | 0,3 | 546 | 0,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 24655 | 3,2 | 4663 | 2,2 |
| Naxçıvan Muxtar Respublikası | 24076 | 3,1 | 6748 | 3,2 |

Sahibkar qadınların 31,9 faizi Bakıda, 17,7 faizi Aran, 16,1 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (23,5%), Gəncə-Qazax (25,0%) və Lənkəran (21,9%) iqtisadi rayonlarında, Naxçıvan Muxtar Respublikasında (21,9%) qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# Əhalinin gəlirləri

İlkin məlumatlara görə, 2020-ci ilin yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri 27377,8 milyon manat təşkil etmiş və əvvəlki ilin eyni dövrünə nisbətən 0,6 faiz artmışdır. Bu dövrdə ölkənin istehlak bazarında qiymətlərin artımı əhalinin gəlirlərinin artımını 2,4 faiz bəndi üstələmişdir.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 24706,9 milyon manatlıq vəsait qalmışdır.

Cədvəl 72

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2020-ci il yanvar-iyun aylarında | 2019-cu il yanvar-iyun aylarında*) | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Əhalinin nominal gəlirləri, mlyn.manat | 27377,8 | 27218,7 | 100,6 |
| hər nəfərə, manat | 2749,7 | 2755,7 | 99,8 |
| Sərəncamda qalan gəlirlər, mlyn.manat | 24706,9 | 24929,6 | 99,1 |
| hər nəfərə, manat | 2481,4 | 2523,9 | 98,3 |

*) 2019-cu ilin aylıq göstəriciləri dövr üzrə yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

# Əməkhaqqı

2020-ci ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 24,9 faiz artaraq 728,9 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3693,1 manat, qeyri neft-qaz sektorunda 663,7 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 625,9 manat, özəl müəssisələrdə isə 863,7 manat olmuşdur.

Cədvəl 73

**2020-ci ilin yanvar-may aylarında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı**
(manat)

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Ölkə üzrə – cəmi** | **728,9** | **625,9** | **863,7** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 416,0 | 387,1 | 447,0 |
| Mədənçıxarma sənayesi | 3 649,1 | 1 714,7 | 4 915,4 |
| Emal sənayesi | 666,0 | 805,0 | 638,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 691,6 | 689,9 | 774,2 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 564,0 | 525,8 | 958,1 |
| Tikinti | 831,2 | 666,4 | 898,4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 548,6 | 483,6 | 549,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 895,5 | 887,8 | 908,6 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 560,0 | 1 151,1 | 539,6 |
| İnformasiya və rabitə | 1 068,3 | 800,4 | 1 418,1 |
| Maliyyə və sığorta fəaliyyəti | 1 935,4 | 1 856,8 | 1 954,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 656,8 | 553,9 | 737,6 |
| Peşə, elmi və texniki fəaliyyət | 1 242,8 | 663,8 | 2 103,2 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 461,2 | 410,9 | 577,4 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 925,0 | 957,4 | 306,1 |
| Təhsil | 516,1 | 507,7 | 796,9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 479,3 | 481,8 | 460,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 518,5 | 472,0 | 1 141,3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 672,7 | 847,5 | 653,5 |

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

Mərkəzi Bankın məlumatına görə 2020-ci il iyun ayının 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 7661,3 milyon manat təşkil etmiş, əmanətlərin 53,9 faizi xarici, 46,1 faizi isə milli valyutada qoyulmuşdur.

Cədvəl 74

**Əhalinin banklardakı əmanətləri**

| | 2020-ci il iyunun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 7661,33 | 88,8 |
| o cümlədən: | | |
| milli valyutada | 3528,37 | 96,1 |
| xarici valyutada | 4132,96 | 83,5 |

Qrafik 32

**Əhalinin banklardakı əmanətləri, milyon manat**




İyun ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 Avroya 1,92 (1,87) manata, 100 Rus rubluna 2,45 (2,46) manata bərabər olmuşdur.

# Demoqrafik vəziyyət

Ölkə əhalisinin sayı ilin əvvəlindən 22745 nəfər və ya 0,2 faiz artaraq 2020-ci il iyun ayının 1-i vəziyyətinə 10089853 nəfərə çatmışdır. Əhalinin ümumi sayının 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Cədvəl 75

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Yanvar – may ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə[1] | | |
| | 2020 | 2019 | artım (+) azalma (-) | 2020 | 2019 | 2020-ci il 2019-cu ilə nisbətən, faizlə |
| Təbii artım | 22393 | 31564 | -9171 | 5,4 | 7,7 | 70,1 |
| doğulanlar | 47206 | 56254 | -9048 | 11,4 | 13,7 | 83,2 |
| ölənlər | 24813 | 24690 | +123 | 6,0 | 6,0 | 100,0 |
| Nikahlar | 15334 | 23684 | -8350 | 3,7 | 5,8 | 63,8 |
| Boşanmalar | 5788 | 7082 | -1294 | 1,4 | 1,7 | 82,4 |

[1] Əmsallar il üçün hesablanmışdır

Bu ilin yanvar-may aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 47206 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 11,4 təşkil etmişdir. Doğulanların 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarıdır. Doğulan körpələrdən 1258-i əkiz, 42-si isə üçəmlər olmuşdur.

Qrafik 33




Cari ilin beş ayında ölkə üzrə 24813 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,0 təşkil etmişdir.

2020-ci ilin yanvar-may ayları ərzində qeydiyyat şöbələri tərəfindən 15334 nikaha daxilolma və 5788 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,7, boşanmaların sayı isə 1,4 olmuşdur.

Bu ilin yanvar-may aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 701 nəfər Azərbaycana gələn, Azərbaycandan isə 349 nəfər gedən qeydə alınmış, ölkə üzrə miqrasiya saldosu müsbət 352 nəfər təşkil etmişdir.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **Tahir Budaqov**

# ƏLAVƏLƏR

Cədvəl 76

## Əsas iqtisadi göstəricilərin dinamikası

| | Sənaye məhsulu | Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi | İstehlak qiymətləri indeksi | Pərakəndə ticarət dövriyyəsi (bütün kanallar üzrə) |
|---|---|---|---|---|

2019-cu il
2018-ci ilin  müvafiq dövrünə nisbətən, faizlə

| | | | | |
|---|---|---|---|---|
| yanvar | 103,4 | 99,9 | 101,7 | 102,7 |
| yanvar-fevral | 104,6 | 103,9 | 101,9 | 102,6 |
| yanvar-mart | 104,4 | 106,1 | 102,1 | 102,7 |
| yanvar-aprel | 102,2 | 107,5 | 102,4 | 102,7 |
| yanvar-may | 102,2 | 107,6 | 102,4 | 102,8 |
| yanvar-iyun | 101,5 | 106,7 | 102,5 | 102,8 |

2020-ci il
2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə

| | | | | |
|---|---|---|---|---|
| yanvar | 102,1 | 110,0 | 102,7 | 103,2 |
| yanvar-fevral | 100,9 | 101,6 | 102,8 | 103,1 |
| yanvar-mart | 100,8 | 86,8 | 103,0 | 101,2 |
| yanvar-aprel | 103,0 | 73,3 | 103,0 | 98,1 |
| yanvar-may | 100,4 | 68,7 | 102,9 | 98,3 |
| yanvar-iyun | 98,5 | 69,6 | 103,0 | 98,1 |

`

Cədvəl 77

## 2020-ci ilin yanvar-iyun aylarında tikintinin əsas göstəriciləri
(bütün maliyyə mənbələri hesabına)

| | 2020-ci ilin yanvar-iyun aylarında | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə |
|---|---|---|
| İstifadəyə verilmişdir:<br>Yaşayış evləri, ümumi sahə, min kvadrat metr *) | 2586,0 | 2,6 d. |
| Xəstəxanalar, çarpayı | 400 | 129,0 |
| Ambulatoriya-poliklinika müəssisələri, bir növbədə gəlişlərin sayı | 30 | 85,7 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat | 5956,2 | 97,3 |
| ondan<br>məhsul istehsalı sahələrinə | 3977,8 | 101,5 |
| xidmət sahələrinə | 1352,3 | 82,8 |
| yaşayış evlərinin tikintisinə | 626,1 | 110,0 |
| Ümumi vəsaitdən tikinti-quraşdırma işlərində istifadə edilmişdir | 3577,3 | 85,5 |

***)** İstifadəyə verilmiş yaşayış evlərinin sahəsinə dair məlumatlarda müşahidə olunan kəskin artım "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli 529 nömrəli Fərmanına əsasən, əvvəlki illərdə tikilmiş və müəyyən səbəblərə görə istismarına icazə verilməmiş bəzi çoxmənzilli binaların cari ilin hesabat dövründə istismarına icazə verilməsi ilə bağlı olmuşdur.

Cədvəl 78

## Mal-qaranın sayı
(ayın 1-i vəziyyətinə, min başla)

| | İribuynuzlu mal-qara | o cümlədən inək və camışlar | Qoyun və keçilər |
|---|---|---|---|
| **2015** | | | |
| Yanvar | 2 697,5 | 1 299,2 | 8 645,4 |
| Aprel | 2 701,9 | 1 298,4 | 8 784,4 |
| İyul | 2 708,2 | 1 301,3 | 8 807,4 |
| Oktyabr | 2 703,9 | 1 301,4 | 8 743,4 |
| **2016** | | | |
| Yanvar | 2 708,3 | 1 303,0 | 8 677,1 |
| Aprel | 2 719,6 | 1 302,6 | 8 828,0 |
| İyul | 2 724,9 | 1 303,6 | 8 823,2 |
| Oktyabr | 2 720,8 | 1 303,8 | 8 740,7 |
| **2017** | | | |
| Yanvar | 2 698,5 | 1 299,0 | 8 614,8 |
| Aprel | 2 706,8 | 1 300,8 | 8 785,5 |
| İyul | 2 707,7 | 1 299,9 | 8 767,1 |
| Oktyabr | 2 702,6 | 1 298,7 | 8 667,3 |
| **2018** | | | |
| Yanvar | 2 673,0 | 1 285,8 | 8 454,3 |
| Aprel | 2 684,1 | 1 290,0 | 8 659,2 |
| İyul | 2 691,3 | 1 290,7 | 8 649,0 |
| Oktyabr | 2 686,5 | 1 291,0 | 8 549,4 |
| **2019** | | | |
| Yanvar | 2 658,8 | 1 279,1 | 8 304,1 |
| Aprel | 2 672,7 | 1 284,8 | 8 563,7 |
| İyul | 2 674,0 | 1 284,9 | 8 542,7 |
| Oktyabr | 2 669,4 | 1 284,0 | 8 451,9 |
| **2020** | | | |
| Yanvar | 2 646,6 | 1 278,2 | 8 189,2 |
| Aprel | 2 658,3 | 1 284,9 | 8 386,0 |
| İyul | 2 666,8 | 1 286,2 | 8 395,7 |

Cədvəl 79

**Nəqliyyat sektorunda yük daşınması,** min ton

| | 2020-ci ilin yanvar-iyun aylarında | 2019-cu ilin müvafiq dövründə | 2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **96 314,2** | **112 090,2** | **85,9** |
| o cümlədən: Dəmir yolu | 7 201,2 | 6 981,6 | 103,1 |
| Dəniz | 3 047,9 | 3 053,4 | 99,8 |
| Hava | 186,2 | 84,4 | 220,6 |
| Boru kəməri | 29 581,4 | 29 745,5 | 99,4 |
| neft kəməri | 18 356,7 | 19 744,1 | 93,0 |
| qaz kəməri | 11 224,7 | 10 001,4 | 112,2 |
| Avtomobil | 56 297,5 | 72 225,3 | 77,9 |

Cədvəl 80

**Nəqliyyat sektorunda yük dövriyyəsi,** milyon ton-km

| | 2020-ci ilin yanvar-iyun aylarında | 2019-cu ilin müvafiq dövründə | 2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **40 790,9** | **43 794,4** | **93,1** |
| o cümlədən: Dəmir yolu | 2 460,2 | 2 404,6 | 102,3 |
| Dəniz | 1 653,8 | 1 655,5 | 99,9 |
| Hava | 927,4 | 444,5 | 208,6 |
| Boru kəməri | 30 103,7 | 32 051,6 | 93,9 |
| neft kəməri | 26 276,5 | 28 602,4 | 91,9 |
| qaz kəməri | 3 827,2 | 3 449,2 | 111,0 |
| Avtomobil | 5 645,8 | 7 238,2 | 78,0 |

Cədvəl 81

**Nəqliyyat sektorunda sərnişin daşınması,** min sərnişin

| | 2020-ci ilin yanvar-iyun aylarında | 2019-cu ilin müvafiq dövründə | 2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **689 971,9** | **967 301,2** | **71,3** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 1 323,3 | 1 577,2 | 83,9 |
| Dəniz | 8,7 | 8,9 | 97,8 |
| Hava | 446,8 | 1 127,6 | 39,6 |
| Metro | 64 106,6 | 116 601,7 | 55,0 |
| Avtomobil | 624 086,5 | 847 985,8 | 73,6 |
| avtobus | 600 199,6 | 814 199,8 | 73,7 |
| taksi | 23 886,9 | 33 786,0 | 70,7 |

Cədvəl 82

**Nəqliyyat sektorunda sərnişin dövriyyəsi,**
milyon sərnişin-km

| | 2020-ci ilin yanvar-iyun aylarında | 2019-cu ilin müvafiq dövründə | 2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **10 744,9** | **15 549,8** | **69,1** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 130,2 | 246,8 | 52,8 |
| Dəniz | 3,9 | 3,8 | 102,6 |
| Hava | 747,8 | 1 969,9 | 38,0 |
| Metro | 707,4 | 1 286,6 | 55,0 |
| Avtomobil | 9 155,6 | 12 042,7 | 76,0 |
| avtobus | 8 626,4 | 11 291,1 | 76,4 |
| taksi | 529,2 | 751,6 | 70,4 |

Cədvəl 83

# Pərakəndə ticarət dövriyyəsi

| | 2019 | | 2020 | |
|---|---|---|---|---|
| | milyon manatla | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manatla | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 2898,5 | 102,7 | 3075,6 | 103,2 |
| Fevral | 2616,6 | 102,5 | 2783,1 | 103,1 |
| Mart | 3328,0 | 102,9 | 3383,6 | 98,0 |
| **I rüb** | **8843,1** | **102,7** | **9242,3** | **101,2** |
| Aprel | 2514,3 | 102,4 | 2273,8 | 87,0 |
| May | 2971,0 | 103,2 | 3051,1 | 99,0 |
| İyun | 3649,5 | 103,0 | 3678,5 | 97,5 |
| **II rüb** | **9134,8** | **102,5** | **9003,4** | **94,7** |
| **Yanvar-iyun** | **17977,9** | **102,8** | **18245,7** | **98,1** |
| İyul | 3130,4 | 102,8 | | |
| Avqust | 3066,9 | 103,2 | | |
| Sentyabr | 3402,2 | 103,3 | | |
| **III rüb** | **9599,5** | **102,6** | | |
| **Yanvar-sentyabr** | **27577,4** | **103,0** | | |
| Oktyabr | 3545,5 | 103,8 | | |
| Noyabr | 3296,3 | 108,1 | | |
| Dekabr | 4972,5 | 104,1 | | |
| **IV rüb** | **11814,3** | **104,5** | | |
| **İllik** | **39391,7** | **103,6** | | |

Cədvəl 84

## Pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə dövriyyəsi və indeksləri

| | **Ərzaq məhsulları, içkilər və tütün məmulatları** | | **Qeyri-ərzaq malları** | |
|---|---|---|---|---|
| | milyon manatla | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manatla | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| | | **2019** | | |
| Yanvar | 1456,0 | 102,4 | 1442,5 | 103,1 |
| Fevral | 1325,3 | 102,1 | 1291,3 | 102,9 |
| Mart | 1690,8 | 102,5 | 1637,2 | 103,3 |
| **I rüb** | **4472,1** | **102,4** | **4371,0** | **103,1** |
| Aprel | 1232,8 | 102,5 | 1281,5 | 102,3 |
| May | 1482,8 | 102,6 | 1488,2 | 103,7 |
| İyun | 1757,2 | 102,7 | 1892,3 | 103,3 |
| **II rüb** | **4472,8** | **102,6** | **4662,0** | **103,2** |
| **Yanvar-iyun** | **8944,9** | **102,5** | **9033,0** | **103,1** |
| İyul | 1641,4 | 101,8 | 1489,0 | 103,8 |
| Avqust | 1631,8 | 103,1 | 1435,1 | 103,3 |
| Sentyabr | 1729,0 | 102,7 | 1673,2 | 104,0 |
| **III rüb** | **5002,2** | **102,6** | **4597,3** | **103,8** |
| **Yanvar – sentyabr** | **13947,1** | **102,6** | **13630,3** | **103,3** |
| Oktyabr | 1794,7 | 103,8 | 1750,8 | 103,9 |
| Noyabr | 1674,0 | 107,0 | 1622,3 | 109,2 |
| Dekabr | 2551,6 | 103,5 | 2420,9 | 104,8 |
| **IV rüb** | **6020,3** | **104,5** | **5794,0** | **105,7** |
| **Yanvar dekabr** | **19967,4** | **103,2** | **19424,3** | **104,0** |
| | | **2020** | | |
| Yanvar | 1564,3 | 102,7 | 1511,3 | 103,6 |
| Fevral | 1430,4 | 102,7 | 1352,7 | 103,6 |
| Mart | 1846,3 | 103,0 | 1537,3 | 92,8 |
| **I rüb** | **4841,0** | **102,9** | **4401,3** | **99,5** |
| Aprel | 1328,7 | 101,7 | 945,1 | 72,8 |
| May | 1658,0 | 105,8 | 1393,1 | 92,3 |
| İyun | 1902,0 | 102,8 | 1776,5 | 92,5 |
| **II rüb** | **4888,7** | **103,4** | **4114,7** | **87,0** |
| **Yanvar-iyun** | **9729,7** | **103,1** | **8516,0** | **93,1** |

Cədvəl 85

## İctimai iaşə dövriyyəsinin dinamikası

| | 2019-cu il | | 2020-ci il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 101 995,5 | 103,6 | 112 039,5 | 108,3 |
| Fevral | 100 335,0 | 103,4 | 110 923,8 | 109,5 |
| Mart | 114 777,0 | 103,1 | 56 376,5 | 48,6 |
| **I rüb** | **317 107,5** | **103,4** | **279 339,8** | **87,1** |
| Aprel | 98 288,1 | 103,8 | 24 858,8 | 25,1 |
| May | 120 895,0 | 102,9 | 38 197,8 | 31,3 |
| İyun | 149 641,0 | 104,5 | 34 744,0 | 23,0 |
| **II rüb** | **368 824,1** | **103,7** | **97 800,6** | **26,2** |
| **Yanvar-iyun** | **685 931,6** | **103,6** | **377 140,4** | **54,4** |
| İyul | 140 160,9 | 109,4 | | |
| Avqust | 140 970,0 | 109,3 | | |
| Sentyabr | 133 019,6 | 106,6 | | |
| **III rüb** | **414 150,5** | **108,5** | | |
| **Yanvar-sentyabr** | **1 100 082,1** | **105,4** | | |
| Oktyabr | 151 462,8 | 107,6 | | |
| Noyabr | 160 455,9 | 109,9 | | |
| Dekabr | 243 162,2 | 110,3 | | |
| **IV rüb** | **555 080,9** | **109,4** | | |
| **İllik** | **1 655 163,0** | **106,7** | | |

Cədvəl 86

## **Əhaliyə göstərilən ödənişli xidmətlər** (aylar üzrə)

| | 2019-cu il | | 2020-ci il | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 768,7 | 100,8 | 817,6 | 104,8 |
| Fevral | 558,9 | 100,4 | 596,3 | 105,2 |
| Mart | 765,0 | 101,1 | 592,2 | 76,5 |
| **I rüb** | **2 092,6** | **100,8** | **2 006,1** | **94,5** |
| Aprel | 566,9 | 101,8 | 422,4 | 74,2 |
| May | 664,7 | 102,4 | 430,3 | 64,5 |
| İyun | 765,9 | 102,5 | 481,1 | 62,1 |
| **II rüb** | **1 997,5** | **102,1** | **1 333,8** | **66,3** |
| **Yanvar-iyun** | **4 090,1** | **101,5** | **3 339,9** | **80,8** |
| İyul | 802,4 | 103,3 | | |
| Avqust | 800,4 | 103,8 | | |
| Sentyabr | 877,9 | 103,1 | | |
| **III rüb** | **2 480,7** | **103,4** | | |
| **Yanvar-sentyabr** | **6 570,8** | **102,1** | | |
| Oktyabr | 868,3 | 103,6 | | |
| Noyabr | 873,7 | 104,6 | | |
| Dekabr | 1 294,5 | 108,1 | | |
| **IV rüb** | **3 036,5** | **105,7** | | |
| **İllik** | **9607,3** | **103,1** | | |

Cədvəl 87

## Dövlət büdcəsinin aylıq və rüblük icrası

| | Dövlət büdcəsinin gəlirləri | | Dövlət büdcəsinin xərcləri | |
|---|---|---|---|---|
| | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2019-cu il** | | | | |
| Yanvar | 2109,9 | 151,4 | 1276,7 | 130,7 |
| Fevral | 1439,9 | 118,4 | 1693,2 | 113,4 |
| Mart | 1906,9 | 97,6 | 2089,3 | 107,8 |
| **I rüb** | **5456,7** | **119,6** | **5059,2** | **114,8** |
| Aprel | 2064,4 | 100,4 | 2161,3 | 138,7 |
| May | 1527,6 | 94,0 | 2205,5 | 135,4 |
| İyun | 1447,4 | 89,6 | 1525,0 | 79,0 |
| **II rüb** | **5039,4** | **95,1** | **5891,8** | **115,2** |
| İyul | 2030,4 | 89,5 | 2151,6 | 101,3 |
| Avqust | 2374,9 | 121,7 | 1609,5 | 87,6 |
| Sentyabr | 2061,8 | 101,7 | 1978,5 | 90,7 |
| **III rüb** | **6467,1** | **103,5** | **5739,6** | **93,5** |
| Oktyabr | 2403,9 | 114,1 | 1766,2 | 83,9 |
| Noyabr | 1892,5 | 95,5 | 1718,5 | 90,4 |
| Dekabr* | 3138,9 | 135,8 | 4250,3 | 138,8 |
| **IV rüb*** | **7435,3** | **116,2** | **7735,0** | **109,5** |
| **2020-ci il** | | | | |
| Yanvar | 1840,0 | 87,2 | 1403,2 | 109,9 |
| Fevral | 1792,2 | 124,5 | 1927,0 | 113,8 |
| Mart | 4200,2 | 220,3 | 1924,4 | 92.1 |
| **I rüb** | **7832,4** | **143,5** | **5254,6** | **103,9** |
| Aprel | 1763,2 | 85,4 | 2013,0 | 93,1 |
| May | 984,7 | 64,5 | 2124,7 | 96,3 |

*- ilkin məlumatlar əsasında

Cədvəl 88

## 2020-ci ilin yanvar-may aylarında Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri*

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **11136978,9** | **4165052,6** | **6971926,3** |
| o cümlədən: | | | |
| İtaliya | 2598109,6 | 169325,7 | 2428783,9 |
| Türkiyə | 1863795,2 | 614189,4 | 1249605,8 |
| Rusiya Federasiyası | 1048324,6 | 769440,4 | 278884,2 |
| Çin | 730182,7 | 541221,9 | 188960,8 |
| Ukrayna | 388356,1 | 180885,6 | 207470,5 |
| Amerika Birləşmiş Ştatları | 366010,9 | 358250,6 | 7760,3 |
| Hindistan | 342332,7 | 57513,8 | 284818,9 |
| Almaniya | 336379,9 | 221687,0 | 114692,9 |
| İsrail | 319058,2 | 7900,2 | 311158,0 |
| Yunanıstan | 248973,0 | 5740,8 | 243232,2 |
| Gürcüstan | 217921,0 | 24125,1 | 193795,9 |
| Xorvatiya | 210302,1 | 546,0 | 209756,1 |
| Çexiya | 182085,6 | 19749,9 | 162335,7 |
| Tunis | 144424,1 | 1792,3 | 142631,8 |
| Vyetnam | 138088,6 | 24819,3 | 113269,3 |
| Portuqaliya | 136149,8 | 5398,5 | 130751,3 |
| İran İslam Respublikası | 129348,0 | 116321,6 | 13026,4 |
| Ispaniya | 121923,1 | 25983,0 | 95940,1 |
| Fransa | 121893,9 | 67046,4 | 54847,5 |
| Birləşmiş Krallıq | 116411,1 | 108308,8 | 8102,3 |
| Avstriya | 115634,3 | 29493,1 | 86141,2 |
| Belarus | 112604,1 | 48090,3 | 64513,8 |
| İsveçrə | 109023,7 | 37534,8 | 71488,9 |
| Yaponiya | 81664,9 | 79527,6 | 2137,3 |
| Koreya Respublikası | 71550,4 | 71499,7 | 50,7 |
| Digər ölkələr | 886431,3 | 578660,8 | 307770,5 |

*Gömrük məlumatı

Cədvəl 89

## Azərbaycanın xarici ticarət saldosu

milyon ABŞ dolları

| Dövr | 2020-ci il | | | 2019-cu il | | |
|---|---|---|---|---|---|---|
| | Xarici ticarət saldosu | o cümlədən | | Xarici ticarət saldosu | o cümlədən | |
| | | MDB üzvü dövlətləri | digər ölkələr | | MDB üzvü dövlətləri | digər ölkələr |
| Yanvar | 1409,2 | -51,4 | 1460,6 | 254,4 | -136,0 | 390,4 |
| Fevral | 52,4 | -157,2 | 209,6 | 739,7 | -147,3 | 887,0 |
| Mart | 107,5 | -186,9 | 294,4 | 362,3 | -212,3 | 574,6 |
| **I rüb** | **1569,1** | **-395,5** | **1964,6** | **1356,4** | **-495,6** | **1852,0** |
| Aprel | 1354,8 | -59,5 | 1414,3 | 1179,5 | -188,6 | 1368,1 |
| May | -117,1 | -72,7 | -44,4 | 247,2 | -125,5 | 372,7 |
| İyun | | | | 177,8 | -100,4 | 278,2 |
| **II rüb** | | | | **1604,5** | **-414,5** | **2019,0** |
| **I y/illik** | | | | **2960,9** | **-910,1** | **3871,0** |
| İyul | | | | 875,4 | -203,4 | 1078,8 |
| Avqust | | | | 302,0 | -197,9 | 499,9 |
| Sentyabr | | | | 352,9 | -260,8 | 613,7 |
| **III rüb** | | | | **1530,3** | **-662,1** | **2192,4** |
| **9 aylıq** | | | | **4491,2** | **-1572,2** | **6063,4** |
| Oktyabr | | | | 877,5 | -226,1 | 1103,6 |
| Noyabr | | | | 552,6 | -208,4 | 761,0 |
| Dekabr | | | | 47,1 | -247,3 | 294,4 |
| **IV rüb** | | | | **1477,2** | **-681,8** | **2159,0** |
| **İllik** | | | | **5968,4** | **-2254,0** | **8222,4** |

Cədvəl 90

## 2020-ci ilin yanvar-may aylarında ixrac olunan mühüm növ məhsullar

| Malların adı | 2020-ci ilin yanvar-may aylarında | | 2019-cu ilin yanvar-may aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| Təzə tərəvəz, min ton | 118,9 | 132461,6 | 98,2 | 113,0 |
| Təzə meyvə, ton | 50723,5 | 79889,0 | 66,7 | 80,2 |
| Kartof, ton | 56496,0 | 23236,3 | 107,7 | 102,3 |
| Çay, ton | 623,5 | 4145,1 | 107,5 | 112,4 |
| Bitki yağları, ton | 4908,8 | 4336,0 | 1,9 d. | 1,7 d. |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 1699,9 | 1825,2 | 1,7 d. | 1,7 d. |
| Şəkər, ton | 14637,7 | 5990,5 | 87,3 | 80,8 |
| Meyvə və tərəvəz konservləri, ton | 2696,4 | 3786,2 | 101,1 | 106,6 |
| Meyvə və tərəvəz şirələri, ton | 4786,0 | 7075,0 | 105,1 | 142,0 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 93,4 | 1327,9 | 50,7 | 53,2 |
| Tütün, ton | 1865,6 | 4393,2 | 74,1 | 76,1 |
| Bentonit gili, ton | 69542,6 | 4028,1 | 94,8 | 99,4 |
| Xam neft, min ton | 13773,4 | 5071228,6 | 98,0 | 75,4 |
| Xam neft, min ton (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 12570,1 | 3597309,0 | 96,4 | 58,2 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 54535,4 | 31611,1 | 59,5 | 56,7 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, min ton | 401,6 | 93346,0 | 119,0 | 57,6 |
| Maye qaz, ton | 16172,8 | 2586,2 | 48,5 | 36,7 |
| Təbii qaz, mlyn. kub metr | 5461,2 | 1038426,9 | 111,4 | 119,1 |
| Təbii qaz, mlyn. kub metr (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 5679,6 | 1227791,6 | 108,0 | 118,6 |
| Neft koksu, ton | 43251,7 | 3128,2 | 51,9 | 37,9 |
| Polietilen, ton | 59858,1 | 38293,0 | 142,2 | 107,5 |
| Pambıq lifi, ton | 34410,8 | 48638,4 | 73,4 | 71,4 |
| Pambıq ipliyi, ton | 4108,4 | 9231,5 | 81,2 | 75,2 |
| Qara metallardan borular, ton | 9252,1 | 6876,6 | 1,7 d. | 1,8 d. |
| Emal olunmamış alüminium, ton | 12033,3 | 20375,7 | 84,1 | 75,4 |

Cədvəl 91

## 2020-ci ilin yanvar-may aylarında idxal olunan mühüm növ məhsullar

| Malların adı | 2020-ci ilin yanvar-may aylarında | | 2019-cu ilin yanvar-may aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 4845,3 | 18373,1 | 135.2 | 1,6 d. |
| Quş əti və onun əlavə məhsulları, ton | 15461,7 | 17747,4 | 104,5 | 113,3 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 7198,3 | 35862,5 | 132,5 | 132,0 |
| Kartof, ton | 90452,8 | 24690,5 | 99,4 | 103,9 |
| Təzə tərəvəz, ton | 19470,7 | 10097,0 | 125,2 | 128,6 |
| Təzə meyvə, ton | 65185,8 | 58723,7 | 115,9 | 108,3 |
| Çay, ton | 5400,3 | 20283,5 | 105,2 | 103,8 |
| Buğda, min ton | 341,8 | 74615,0 | 62,0 | 59,9 |
| Bitki yağları, ton | 58059,6 | 50830,0 | 123,8 | 142,2 |
| Xam şəkər və şəkər, min ton | 127,3 | 43548,7 | 93,5 | 85,1 |
| Siqaretlər, mlyn. ədəd | 423,9 | 8296,6 | 20,8 | 25,2 |
| Sement və sement klinkerləri, ton | 14476,2 | 2685,6 | 101,5 | 89,7 |
| Dərman vasitələri, ton | 9494,3 | 134855,1 | 1,7 d. | 132,4 |
| Mineral gübrələr, min ton | 150,0 | 42449,5 | 102,1 | 85,2 |
| Polietilen, ton | 16479,5 | 17535,9 | 85,7 | 77,7 |
| Rezin şinlər, min ədəd | 624,6 | 26086,0 | 82,5 | 97,1 |
| Polad prokatı, min ton | 149,0 | 114810,8 | 129,4 | 134,4 |
| Qara metallardan çubuqlar, ton | 89963,6 | 49423,8 | 148,3 | 146,8 |
| Qara metallardan künclüklər, ton | 14702,3 | 11154,8 | 102,3 | 106,9 |
| Qara metallardan borular, ton | 67823,0 | 111595,4 | 92,3 | 103,7 |
| Məişət kondisionerləri, ədəd | 61171 | 14652,9 | 64,9 | 65,5 |
| Məişət soyuducuları, ədəd | 12504 | 3610,2 | 139,1 | 145,2 |
| Paltaryuyan maşınlar, ədəd | 66864 | 12483,7 | 92,7 | 86,0 |
| Hesablama maşınları, blok və qurğuları, min ədəd | 247,1 | 40848,0 | 126,5 | 137,3 |
| Minik avtomobilləri, ədəd | 18425 | 203835,2 | 130,0 | 104,2 |
| Avtobuslar, ədəd | 71 | 7539,9 | 101,4 | 1,8 d. |
| Yük avtomobilləri, ədəd | 1114 | 17862,1 | 87,4 | 90,9 |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, min ədəd | 237,0 | 18030,2 | 78,8 | 66,3 |

Cədvəl 92

## 2020-ci ilin yanvar-may aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər
## (ötən ilin müvafiq dövrünə nisbətən faizlə, milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | Azərbaycan | Ermənistan | Belarus | Qazaxıstan | Qırğızıstan | Moldova | Rusiya | Tacikistan | Türkmənistan | Özbəkistan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul[1)] | 98,3 | 103,8[1)] | 98,2 | 102,7[1)] | 95,2 | 100,9[1)] | 101,6[1)] | 107,5[2)] | 106,3[1)] | 104,1[1)] | 98,7[1)] |
| Sənaye məhsulunun ümumi həcmi[1)] | 100,4 | 102,4 | 96,1 | 104,8 | 99,8 | 94,4[3)] | 97,6 | 111,1 | … | 97,8 | 91,3 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi | 68,7 | 100,3 | 104,7 | 93,7 | 115,3 | 102,6 | 94,0 | 101,5 | … | 119,1 | 95,1 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər[1)] | 97,2 | 76,6 | 102,3 | 100,1 | 87,2 | 98,5[1)] | 101,2[1)] | 95,6 | … | 89,8[1)] | 64,5[1) 4)] |
| Ümumi istifadədə olan dəmir yolu ilə yük daşınması | 102,9 | 114,0 | 80,5 | 103,0 | 95,1[5)] | 69,2[3)] | 95,4 | 118,1 | … | 100,9[1)] | 90,6 |
| Pərakəndə əmtəə dövriyyəsi[1)] | 98,3 | 86,5 | 103,0 | 83,8 | 83,7 | | 93,9 | 101,1 | … | 96,9 | 103,1 |
| o cümlədən satış müəssisələrinin pərakəndə əmtəə dövriyyəsi | 104,3 | 87,4 | 104,6 | 93,5 | 87,6 | 99,4[6)] | 94,5 | 105,0 | … | 100,5 | 104,4 |
| İstehlak qiymətlərinin indeksi | 102,9 | 100,3 | 104,9 | 106,3 | 105,8 | 105,7 | 102,7 | 109,1 | … | 114,0 | 102,3 |
| Əhalinin gəlirləri (faktiki qiymətlərlə) | 101,3[7)] | … | 110,9[3)] | … | … | … | 103,3[1)] * | … | … | … | … |
| Əhalinin mal alınması və xidmətlərə xərcləri (faktiki qiymətlərlə) | 97,5[7)] | … | … | … | … | … | 105,4[1)] * | … | … | … | … |
| Sərəncamda qalan real gəlirlər | 97,2[7)] | … | 105,7[3)] | … | … | … | 99,8[1)] * | … | … | … | … |
| İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı | 126,7[3)] | 107,9* | 113,2 | 114,5* | 112,5[3)] | 110,3[1)] | 106,7[3)] | 104,5[3)] | … | 126,5[1)] | 109,3 |
| İşçi qüvvəsinin müayinəsi əsasında işsizlərin ümumi sayı | … | … | 87,8[1)] | … | … | … | 132,7* | … | … | … | … |
| Məşğulluq xidməti orqanlarından rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı ( dövrün sonuna) | … | 94,7 | 74,2 | 94,9 | 94,6 | 208,8 | 2,8 d. | 100,5[3)] | … | … | … |

…ardı

# 2020-ci ilin yanvar-may aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər
## (ötən ilin müvafiq dövrünə nisbətən faizlə, daimi qiymətlərlə)

| | Azərbaycan | Ermənistan | Belarus | Qazaxı-stan | Qırğızı-stan | Moldova | Rusiya | Taciki-stan | Türk-mənistan | Özbəki-stan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İxrac (faktiki qiymətlərlə)-cəmi | 86,9[8)] | 91,9 | 80,9[3)] | 99,0[3)] | 102,7[3)] | 87,0[3)] | 79,9[9)] | 107,2 | … | 92,4[3)] | 98,3[3)] |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 128,0 | 86,4 | 93,8 | 79,8 | 82,9 | 92,8 | 79,2 | 110,3 | … | 79,1 | 91,3 |
| MDB üzvü olmayan dövlətlərə | 85,0 | 94,1 | 65,6 | 103,1 | 118,0 | 86,0 | 80,0 | 122,5 | … | 98,3 | 99,3 |
| İdxal (faktiki qiymətlərlə)- cəmi | 59,5[8)] | 87,2 | 79,4[3)] | 95,0[3)] | 69,6[3)] | 87,7[3)] | 93,9[9)] | 118,1 | … | 90,3[3)] | 90,7[3)] |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 77,0 | 110,6 | 70,5 | 93,3 | 92,3 | 82,5 | 90,5 | 118,6 | … | 99,4 | 69,0 |
| MDB üzvü olmayan dövlətlərdən | 54,7 | 76,5 | 93,8 | 96,3 | 51,2 | 89,6 | 94,3 | 131,4 | … | 85,4 | 96,5 |

1) 2020-ci ilin yanvar-martı 2019-cu ilin yanvar-martına nisbətən
2) 2019-cu il 2018-ci ilə nisbətən
3) 2020-ci ilin yanvar-apreli 2019-cu ilin yanvar-aprelinə nisbətən
4) Qeyri-maddi aktivlərə yönəldilən investisiyalar daxil olmaqla
5) Yüklənmiş yüklər
6) 2020-ci ilin yanvar-apreli 2019-cu ilin yanvar-aprelinə nisbətən. Ticarət müəssisələrinin avtomobil və motosikllər nəzərə alınmadan əmtəə satışından əldə olunan gəlirləri
7) Milli hesablar sisteminin metodologiyasına əsasən
8) 2020 -ci ilin yanvar-apreli 2019-cu ilin yanvar-aprelinə nisbətən. Müqayisəli qiymətlərlə verilir.
9) 2020 -ci ilin yanvar-apreli 2019-cu ilin yanvar-aprelinə nisbətən. Rusiya Bankının tədiyə balansının məlumatlarına əsasən.
* Qiymətləndirmə
Qeyd: Türkmənistan və Ukrayna üzrə məlumatlar bu dövlətlərin milli statistika xidmətlərinin rəsmi saytlarından götürülmüşdür.

# METODOLOJİ İZAHLAR

**Ümumi daxili məhsul (ÜDM)** milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir. ÜDM həm istehsal, həm də xidmətlər sahələrində rezident vahidlərin iqtisadi fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlə ölçülür.

ÜDM ölkədə məhsul və xidmətlər istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərə verilən əməkhaqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə desək gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər.

Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

**Məhsula və idxala xalis vergilər** - subsidiyalar çıxılmaqla məhsula və idxala vergilərdir.

**Məhsula görə vergi və idxal (ixrac) vergiləri**. Məhsula görə vergilər adətən məhsul və ya xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara əsasən aşağıdakı vergilər aid edilir:

-əlavə dəyər vergisi (ƏDV);

-aksizlər, satışa görə vergilər və s;

-ayrı-ayrı xidmət növlərinə görə vergilər (nəqliyyat, rabitə xidmətlərinə görə vergilər, sığorta vergiləri, reklam, əyləncələrə, oyun və lotereyalara, idman tədbirlərinə görə vergilər və s);

-dövlətin gəlirini artırmaq məqsədilə müəyyən növ məhsul və xidmətlərin istehsalına və yerləşdirilməsinə qanunla inhisar hüququ verilən dövlət müəssisələrinin mənfəəti (fiskal inhisarçıların mənfəəti);

-idxal və ixrac vergiləri, gömrük rüsumları.

**Dəyər ifadəsində sənaye məhsulunun həcminə** - əsas fəaliyyəti sənaye olan müəssisələr (hüquqi şəxslər) və onların ayrı-ayrı xüsusiləşdirilmiş bölmələri, hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti göstərən fərdi sahibkarlar tərəfindən, habelə ev təsərüffatları tərəfindən satılmaq üçün istifadə olunmuş sənaye məhsulunun, sənaye xarakterli işlərin, xidmətlərin dəyəri daxil edilir. Bura sənaye müəssisəsinin və fərdi sahibkarın bütün bölmələri tərəfindən kənara satılmış, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə verilmiş, özünün əsas fondlarının (vəsaitlərinin) tərkibinə daxil edilmiş, eləcə də əmək haqqı kimi öz işçilərinə verilmiş məmulat və məhsulların dəyəri, həmçinin hesabat dövründə və ya əvvəllər istehsal olunmasından asılı olmayaraq hesabat dövründə kənara, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə satılmış özünün istehsalı olan yarımfabrikatların dəyəri daxil edilir. Dəyəri hazır məhsulun istehsalçısı tərəfindən ödənilməyən xammal və materiallardan hazırlanan məmulat bu xammal və materialların dəyəri çıxılmaqla faktiki qüvvədə olan buraxılış qiymətləri ilə sənaye məhsulunun dəyərinə daxil edilir. Sənaye müəssisələrində məhsulun dəyəri zavoddaxili dövriyyənin dəyəri nəzərə alınmadan zavod metodu ilə müəyyən edilir.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir.

Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Sənaye istehsalı indeksi** - dəyər ifadəsində sənaye məhsulunun həcminin dəyişməsinin dinamikasını xarakterizə edir. Sənaye statistikasında tətbiq edilən metodologiyaya görə, artım (azalma) sürətləri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "əlavə dəyər" göstəricisi istifadə olunur.

Sənaye istehsalı indeksinin hesablanmasında mikro sahibkarlıq subyektləri üzrə məlumatlar yalnız rüblük dövrilikdə nəzərə alınır.

**Əsas kapitala yönəldilmiş vəsaitlər** – bütün növ əsas vəsaitlərin alınmasına, yaradılmasına və təkrar istehsalına yönəldilmiş xərclərin məcmusudur. Əsas kapitala yönəldilmiş vəsaitlər tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, layihə-axtarış və sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyələşdirmə mənbələri müəssisə və təşkilatların öz vəsaitləri, büdcə vəsaitləri (dövlət büdcəsi və ya yerli büdcələr), əhalinin şəxsi vəsaitləri, bank kreditləri, büdcədənkənar fondların vəsaitləri və digər vəsaitlər ola bilər.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir.

Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** – yeni tikilən, yenidən qurulan, genişləndirilən bütün növ bina və qurğuların layihə-smeta sənədlərində yerinə yetirilməsi nəzərdə tutulmuş tikinti işlərinə və tikintinin smetasına daxil olan və daxil olmayan avadanlıqların quraşdırılması işlərinə sərf edilmiş vəsaitlərin yekunundan ibarətdir.

**Məhsul istehsalı obyektlərinin tikintisinə –** sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və tikinti fəaliyyət sahəsi obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Xidmət sahələri obyektlərinin tikintisinə** – ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə və incəsənət və digər xidmət sahələri obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər** - xam neftin, təbii qazın hasilatı və neft məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin əsas kapitala yönəldilmiş vəsaitlərdir.

**Qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər dedikdə,** neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər istisna olmaqla, ölkə iqtisadiyyatının bütün fəaliyyət sahələrində əsas kapitala yönəldilmiş vəsaitlər başa düşülür.

**Xarici mənbələrdən əsas kapitala yönəldilmiş xarici vəsaitlər** – xarici sərmayədarlar tərəfindən yeni tikintiyə, yenidənqurma və genişləndirmə üzrə tikinti işlərinə, maşın və avadanlıqların əldə edilməsinə sərf edilən investisiyalar aiddir. Buraya həmçinin tikinti işlərində istifadə edilmiş xarici kreditlər, qrantlar və humanitar yardımlar hesabına istifadə edilmiş vəsaitlər də daxildir.

**Daxili mənbələrdən əsas kapitala yönəldilmiş daxili vəsaitlər** – mənşəyi xarici vəsaitlər olmayan, ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatların öz vəsaitləri, büdcə vəsaiti (dövlət büdcəsi və ya yerli büdcə), ölkə vətəndaşlarının şəxsi vəsaitləri və ölkə banklarının kreditləri hesabına əsas kapitala yönəldilmiş vəsaitlərin məcmusudur.

**Podrat müqavilələri ilə yerinə yetirilən tikinti işlərinin dəyərinə** – tikinti müəssisələri ilə tikinti işlərinin həyata keçirilməsini maliyyələşdirən sifarişçi müəssisə və təşkilatlar arasında bağlanmış müqavilələr əsasında tikinti müəssisələrinin öz gücləri ilə yerinə yetirdikləri bütün növ tikinti işlərinin və xidmətlərin dəyəri aiddir. Bu işlərə tikinti-quraşdırma (yeni tikinti, yenidənqurma, genişləndirmə), əsaslı təmir, cari təmir və digər işlərin və xidmətlərin dəyəri daxildir.

**İstifadəyə verilmiş yaşayış evlərinin ümumi sahəsi** – ümumi sahəyə mənzildəki bütün otaqların sahəsi, mətbəxlərin, dəhlizlərin, sanitar qovşaqlarının, vanna və qarderobların, anbarların, eyvanların, lociyaların və digərlərin sahəsi daxildir.

**Yaşayış evlərində mənzillər** – daimi yaşayış üçün istifadə olunan, başqa yaşayış mənzilləri ilə daxili əlaqəsi olmayan və özünün pilləkən meydançasına, ümumi dəhlizə və ya bilavasitə küçəyə çıxış yolu olan sahədir. Mənzil bir neçə otaqdan ibarət ola bilər.

**Kənd, meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu** dedikdə, bu sahədə (kənd, meşə və balıqçılıq) həm satış, həm də şəxsi istehlak məqsədilə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyəri nəzərdə tutulur. O, bitkiçilik və heyvandarlıqda, ovçuluq, meşəçilik və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulların (xidmətlərin) dəyəri əsasında formalaşır.

**Bitkiçilik və heyvandarlığın ümumi məhsuluna** istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsullarının dəyəri, bitkiçilikdə bitməmiş istehsalın dəyərinin dəyişməsi və göstərilmiş kənd təsərrüfatı xidmətlərinin dəyəri daxil edilir.

**İstehsal olunmuş bitkiçilik məhsulunun dəyərinə** kənd təsərrüfatı bitkiləri məhsullarının – dənli, texniki bitkilərin (yağlı bitkilərin toxumları, şəkər çuğunduru, tütün və s.), kartof, tərəvəz və bostan bitkilərinin, meyvə və giləmeyvənin, digər bitkiçilik məsullarının (yemlik kökümeyvəlilər, quru ot, küləş, senaj, silos, güllər və s.) dəyəri daxil edilir.

**Bitkiçilikdə bitməmiş istehsalın dəyərinə** torpağın becərilməsinə çəkilən xərclər (payız şumlaması, herik şumlanması, məhsulu gələcək dövrlərdə əldə olunacaq payızlıq taxılın əkini üçün zəmin hazırlanması), yatırım xərcləri, bağların becərilmə və saxlanma xərcləri daxildir.

**Heyvandarlıqda istehsal olunmuş məhsulların dəyəri** kənd təsərrüfatı heyvanlarından alınmış məhsulların (süd, yumurta, yun, dəri və s.) dəyəri, kəsim üçün satılmış mal-qara və quşların dəyəri, arıçılıq və xəzli heyvandarlıq məhsullarının dəyərindən ibarətdir.

**Göstərilmiş kənd təsərrüfatı xidmətlərinin dəyərinə** tarlaçılıq, açıq torpaqda tərəvəzçilik və gülçülük sahəsində, qorunan torpaqlarda becərilmə üzrə, bağçılıq, üzümçülük sahəsində və digər çoxillik əkmələrə göstərilən xidmətlər, aqromeliorasiya xidmətləri, kənd təsərrüfatı bitkilərinin xəstəlik və ziyanvericilərdən qorunması, gübrələrin hazırlanması və gətirilməsi, heyvanların yetişdirilməsi, məhsul yığımından sonrakı kənd təsərrüfatı xidmətləri, çoxaldılma üçün toxumun emal və hazırlanması, tinglik xidmətlərinin dəyəri daxildir.

**Ovçuluq təsərrüfatlarında istehsal olunmuş məhsulun dəyərinə** vəhşi heyvanların və ov quşlarının ovlanmasından əldə olunmuş dəyər, ovçuluq təsərrüfatının aparılması (vəhşi heyvanların qorunması, onların sayının və yayılmasının uçotu, ovçuluq təsərrüfatlarının yaradılması və ovçuluq təsərrüfatlarında iqtisadi müşahidələrin aparılması və s.) xərcləri, vəhşi heyvanların və ov quşlarının yetişdirilməsi və ovlanması üçün göstərilən xidmətlərin dəyəri daxil edilir.

**İstehsal olunmuş meşəçilik və ağac tədarükü məhsullarının dəyərinə** meşəyə qulluq və əsas istifadə ilə bağlı doğranmanın gedişində alınmış oduncaq, meşə əkmələrinin rekonstruksiyası ilə əlaqədar kəsmələr və seçmə sanitar kəsmələr, meşələrin becərilməsi, bərpası və salınması xərcləri, meşəçilik və ağac tədarükü ilə əlaqədar xidmətlərin dəyəri aid olunur.

**Balıqçılıq və dəniz məhsullarının dəyərinə** ovlanmış balığın, dəniz məhsullarının (xərçəngkimilər, molyusklar, tısbağalar, suitilər, dəniz kirpisi, təbii mirvarilər, mərcanlar, yosunlar və s.) dəyəri, dəniz orqanizmlərinin və bitkilərinin yetişdirilməsinə, mühafizəsinə çəkilən xərclər, biotexniki tədbirlərin yerinə yetirilməsi (süni kürütökmə yerlərinin quraşdırılması balıq ehtiyatlarının artırılması, vətəgə əhəmiyyətli balıqların təkrar istehsalı), balıqçılıq və balıq ovlanması ilə bağlı göstərilən xidmətlərin dəyəri daxildir.

**Mal-qaranın sayı** haqqında məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə rəsmi statistik hesabat formaları, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd ərazi icra dairələrinin (vahidlərinin) hesabatları və seçmə müayinə materiallarına əsasən hesablanması yolu ilə müəyyən olunur.

**Nəqliyyat sektorunda yük daşınması** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Nəqliyyat sektorunda yük dövriyyəsi** - nəqliyyat müəssisələri və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslərin-fərdi sahibkarların

nəqliyyat vasitələrinin daşıdığı yükün həcmini daşınmış məsafə ilə əlaqədə ton-kilometrlərlə ifadə edir. Bu göstərici hər bir reys üzrə daşınmış yükün tonla miqdarının daşınma məsafəsinə-kilometrlərə vurulması hasillərinin cəmi kimi hesablanır.

**Nəqliyyat sektorunda sərnişin daşınması** - ölkə ərazisində və beynəlxalq marşrutlarda bütün növlərdən olan qatarlar, gəmilər, avtobus, taksi, təyyarə və metro vasitəsi ilə daşınmış sərnişinlərin sayını əhatə edir. Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq, ölkə daxilində və beynəlxalq xətlərdə daşınmış sərnişinlərin hamısı (ödəniş etmədən getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**Nəqliyyat sektorunda sərnişin dövriyyəsi** – sərnişindaşıma nəqliyyatının işinin həcmini məsafə ilə xarakterizə edir və sərnişin-kilometrlə ölçülür. Sərnişin dövriyyəsi daşınmış sərnişinlərin sayını onların daşınma məsafəsinə vurmaq yolu ilə hesablanır.

**Rabitə xidmətlərinin dəyəri** - rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərdir və bu göstərici idarə, müəssisə və təşkilatlara, habelə əhaliyə göstərilmiş rabitə xidmətləri müqabilində rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Buraya poçt rabitəsi, feldyeger və xüsusi rabitə, sənədli elektrik rabitəsi, şəhərlərarası və beynəlxalq telefon rabitəsi, şəhər telefon rabitəsi, kənd telefon rabitəsi, radiorabitə, radio və televiziya yayımı və peyk rabitəsi, naqilli səs yayımı üzrə radiotezliklərin ayrılması, qeydiyyatı, istismarı və nəzarəti, naqilsiz radiorabitə üzrə, mobil telefon rabitəsi, internet xidmətləri, İSDN xidmətləri, ADSL və HDSL xidmətləri, DATA xidmətləri, simsiz yerli telefon rabitəsi xidmətləri və digər rabitə xidmətləri üzrə əldə olunmuş gəlirlər daxildir.

**Pərakəndə əmtəə dövriyyəsi** - əmtəələrin tədavül sferasından şəxsi istehlak sferasına hərəkətinin son mərhələsini, əmtəələrin əhaliyə satışını əks etdirir.

**İaşə əmtəə dövriyyəsi** - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin

aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

**Əhaliyə göstərilən ödənişli xidmətlər** - əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlərin dəyərini əks etdirir.

**İxrac** - ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) ölkə sərhədlərindən kənara göndərilməsidir. Ölkənin öz istehsalı sayılan mallara, həmçinin ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

**İdxal** - ölkədə istehlak etmək və ya təkrar ixrac edilmək üçün ölkə sərhədlərindən kənardan mal gətirilməsidir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

**Orta aylıq nominal əməkhaqqı** – hesablanmış əməkhaqqı fondunun (vergilər və digər sosial ödəmələr daxil olmaqla) faktiki işləmiş işçilərin sayına (sosial, habelə ödənişsiz məzuniyyət verilmiş işçilər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Büdcə** - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

**Büdcə gəlirləri** - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır.

**Büdcə xərcləri** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir.

**Büdcə kəsiri (defisit)** - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir.

**Büdcə artıqlığı (profisit)** - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir.

**Maliyyə nəticələrinin (mənfəət (+) zərər (-) saldosu)** – təşkilatın bütün təsərrüfat əməliyyatlarında, mühasibat uçotu əsasında aydınlaşdırılmış son maliyyə nəticələridir ki, məhsul (mal və xidmətlər) satışından əldə edilən mənfəəti (zərər), əks etdirərək, təşkilatın digər əmlakından, əsas vəsaitlərdən və satışdankənar əməliyyatlardan alınan gəlirlərin bu əməliyyatlara çəkilən xərci qədər azaldılan hissəsidir.

**Pul aqreqatı M2** Milli valyuta hesabatlarında, cari hesabatlarda və qeyri-maliyyə təşkilatları və fiziki şəxs depozitlərinin tədavüldə (bankdan kənar) olan nağd pulların həcmini və qalıq vəsaitini özündə əks etdirir.

**İqtisadi fəal əhali** – məşğul və işsiz əhalinin ümumi sayıdır.

**İqtisadi qeyri-fəal əhali** – məşğul olmayan, müəyyən dövr ərzində iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslərdir.

**Məşğul əhali** - Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq qazanc (gəlir) gətirən hər hansı fəaliyyətlə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilərdir.

**İşsiz əhali** – işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında işaxtaran kimi qeydiyyata alınan əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxslərdir. Bu şəxslər, milli qanunvericiliyə uyğun olaraq işsiz statusu almaq hüququna malikdir.

**İşsizliyin səviyyəsi** – işsizlərin sayının iqtisadi fəal əhalinin sayında faizlə ölçülən xüsusi çəkisidir.

**İstehlak qiymətləri indeksi (İQİ)** – orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi

məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatlı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir.

**Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi (SQİ)** – baza sənaye müəssisələri və təşkilatlarının təmsilçi mallarının qiymət qeydiyyatı əsasında hesablanılır. Qeydiyyat üçün cari ayda istehsal olunan və yüklənən məhsulların faktiki qiymətləri (əlavə dəyər vergisi, aksizlər, məhsulun maya dəyərinə aid olmayan daşınma xərcləri və s. vergi ödəmələri nəzərə alınmadan) götürülür. Sənaye məhsulları istehsalçılarının qiymət indeksi həm məhsullar, həm də iqtisadi fəaliyyət növlərinə görə hesablanır.

**Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi (KTQİ)** – kənd təsərrüfatı müəssisələri, fermer təsərrüfatları və ev təsərrüfatları tərəfindən müxtəlif kanallar üzrə realizə edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir. Kənd təsərrüfatı məhsullarının qiymətləri üzərində müşahidə kənd təsərrüfatı müəssisələrinin seçmə şəbəkəsi üzrə həyata keçirilir.

Alınmış məlumatlar kənd təsərrüfatı məhsullarının realizə şərtlərinin dəyişməsinin təhlilində və kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin dəyişməsində qiymətin rolunun aydınlaşdırılmasında istifadə edilir.

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymətləri indeksi** - “Tikinti” iqtisadi fəaliyyət növünü xarakterizə edən qiymət statistikası sisteminin göstəricilərindən biri hesab olunur və “tərkib elementləri” metodu ilə hesablanır. Tikintidə qiymətlərin dinamikası üçün ən vacib, tipik tikinti məhsullarının - yerüstü tikililər və yol qovşaqlarında istifadə olunan məhsulların müayinəsi aparılır.

İndeksin hesablanması üçün informasiya mənbəyi kimi tikinti təşkilatlarının seçmə şəbəkəsinin statistik müayinə məlumatları çıxış edir. Tikinti-quraşdırma işlərinin hər bir növü üzrə hesabat və əvvəlki dövrün faktiki qiymətlərinin müqayisəsi yolu ilə fərdi indeksləri hesablanır. Daha yüksək səviyyələrdə qiymət indekslərinin aqreqasiyası zamanı seçilmiş tipik tikili növlərinin inşasında ilkin iş və elementlərin

dəyər qiymətləndirilməsi ilə əsaslandırılmış çəki strukturundan istifadə olunur.

Tikintidə mövcud olan smeta-normativ bazasına əsaslanan tikinti elementləri bundan sonra respublika ərazisini təmsil edən tikililərin standart tipləri üzrə aqreqasiya olunur.

**Nəqliyyat sektorunda yükdaşıma qiymətləri indeksi -** ayrı-ayrı nəqliyyat növlərinin yükdaşıma qiymətlərinin dəyişmə templərinin qiymətləndirilməsi üçün həmçinin, ümumi daxili məhsulun (ÜDM) artma (azalma) tempinin hesablanması üçün istifadə olunan deflyator indekslərin və digər makroiqtisadi göstəricilərin müəyyən edilməsi üçün nəzərdə tutulub. Onlar nəqliyyat təşkilatlarının müxtəlif nəqliyyat növləri vasitəsilə yükdaşımalardan əldə etdikləri gəlirlərdəki qiymət amilinin xarakterizə edilməsi üçün istifadə edilir. Yükdaşıma qiymətləri indeksləri makro səviyyədə proqnozların verilməsi və müxtəlif iqtisadi hesablamaların yerinə yetirilməsi zamanı tətbiq edilir. Yükdaşıma qiymətləri indeksləri müxtəlif əlamətlərə: yükün növünə, göndərmənin ölçüsünə, çatdırma vaxtına, daşınma məsafəsinə, daşınma ərazisinə, hərəkət edən tərkibin növünə, yükqaldırma səviyyəsinə və s. görə daşınan yüklərin strukturundakı dəyişmələri nəzərə almadan hesabat dövrü üzrə onların dəyişmələrini müəyyən etməyə imkan verir.

Bütün nəqliyyat növlərinin yükdaşıma qiymətlərinin məcmu indeksi dəmir yolu, boru kəməri, dəniz, daxili sular, avtomobil və hava nəqliyyatı növlərinin yükdaşıma qiymətlərinin indeksləri əsasında müəyyən edilir.

**Əhali sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalınmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşdirmələr aparılır.

Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum və ölüm haqqında müvafiq akt qeydlərində olan məlumatların hər ay statistik cəhətdən işlənməsi nəticəsində əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** – təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** – uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** – əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində, müvafiq olaraq ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** – əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Ölümün səbəbləri** haqqında informasiya mənbəyi ölümə səbəb olmuş xəstəlik, bədbəxt hadisə, qətl, özünəqəsd, və digər xarici təsirlərlə əlaqədar olaraq səhiyyə müəssisələrində tərtib olunan ölüm haqqında tibbi şəhadətnamələrdəki qeydlərdən ibarətdir.

Ölüm haqqında məlumatların səbəblər üzrə kodlaşdırılması və işlənməsi xəstəliklərin, zədələr və ölümün səbəblərinin X baxılış Beynəlxalq Təsnifatına uyğun aparılır.

**Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün)** – doğulanların hər birinin orta hesabla yaşaya biləcəyi illərin sayını göstərir. Burada doğulanların bütün ömrü boyu ölümün səviyyəsinin hər yaş qrupu üzrə göstəricinin hesablandığı ildəki səviyyədə dəyişməz qalacağı şərti qəbul edilir. Doğulanda gözlənilən ömür uzunluğu həyat cədvəllərinin hesablanması nəticəsində alınır.

**Nikah** kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və

arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Boşanma (nikahın pozulması)** – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

E-mail:sc@stat.gov.az
http://www.stat.gov.az

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
AZ 1136, İnşaatçılar prospekti 81
Nüsxə 139